DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 6 (311) / İYUN 2017-Cİ İL



... Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlətdir. Azərbaycanda radikalizm, fundamentalizm yoxdur, daxildə hər hansı təhlükə mənbəyi yoxdur. Bunun səbəbi təkcə bizim hansısa inzibati addımlarımız deyil. Bunun səbəbi cəmiyyətdə mövcud olan ab-havadır. Radikalizm, terrorizm harada canlanır, harada baş qaldırır?! O ölkələrdə ki, savadlılıq yoxdur. O ölkələrdə ki, sosial ədalət pozulur. O ölkələrdə ki, ədalətsizlik mövcuddur və səfalət yaşanır. Ona görə radikalizmə qarşı ən gözəl sığorta sosial ədalətdir, maddi rifahdır, savadlılıqdır, düzgün siyasətdir. Bu amillər olan yerdə radikalizm üçün heç bir əsas yoxdur. Düzdür, kənardan ölkəmizə müdaxilə oluna bilər. Ancaq Azərbaycan bu müdaxiləyə qarşı öz tədbirlərini görən, Azərbaycan xalqının rahat həyatını təmin edən kifayət qədər güclü dövlətdir.

Bax, budur, bugünkü Azərbaycan. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, bizim bütün uğurlarımızın təməlində düşünülmüş siyasət dayanır. Biz bütün istiqamətlər üzrə böyük uğurlara imza atmışıq... İqtisadi sahədə bu ilin beş ayının göstəriciləri də çox ümidvericidir və müsbətdir. Qeyri-neft iqtisadiyyatımız 2 faizdən çox artıb. Qeyri-neft sənayemiz təxminən 4 faiz artıb. Kənd təsərrüfatı 2 faiz artıb. İxrac 44 faiz artıb, idxal təxminən 17 faiz azalıb. Bütün bunlar iqtisadi islahatlar, düşünülmüş siyasət hesabına mümkün olmuşdur.

**Prezident İlham Əliyevin müqəddəs Ramazan ayı münasibətilə Şeyxülislam Allahşükür Paşazadənin öz iqamətgahında açdığı iftar mərasimindəki nitqindən**
**Bakı şəhəri, 20 iyun 2017-ci il.**

## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda Allah və din qarşısında borclarını yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Xalqımız həmişə milli-mənəvi dəyərlərə sadiqliyi ilə seçilmişdir. İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən biri olan Azərbaycanda milli-dini mərasimlər, o cümlədən, Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur. Mübarək Ramazan günlərində xeyirxah niyyətlərinizlə həmrəy olduğumu bildirir, bütün dua və diləklərinizin Tanrı dərgahında qəbul olunmasını arzu edirəm.

Bu il Ramazan ayı ölkəmizin həyatında bir sıra əlamətdar hadisələrlə eyni vaxta təsadüf etmişdir. 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi, IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi, eyni zamanda, etnik-dini dözümlülük, dinlərarası həmrəylik və əməkdaşlıq məkanı olan ölkəmizin sivilizasiyalararası dialoq forumları kimi mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi hazırkı narahat dünyamızda Azərbaycan dövlətinin sülh və təhlükəsizlik işinə verdiyi dəyərli töhfələrdir. Biz bəşəriyyətin gələcəyini hədəf alan hər cür qlobal təhdid və təhlükələrə qarşı ardıcıl mübarizəmizi, dialoq və həmrəylik təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

Əziz bacı və qardaşlarım!

Hər il Azərbaycanda böyük fərəh və könül xoşluğu ilə keçirilən orucluq mərasimləri cəmiyyətimizdə birlik və həmrəyliyin, dostluq və qardaşlıq münasibətlərinin təntənəsinə çevrilir. Bu əziz bayram günlərində bir daha hər birinizi, eyni zamanda, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram!

***Ramazan bayramınız mübarək olsun!***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 iyun 2017-ci il.**

### HACI CAVAD MƏSCİDİNİN YASAMAL RAYONU ƏRAZİSİNDƏ YENİ ÜNVANDA TƏMƏLİNİN QOYULACAĞI MƏKANA BAXIŞ KEÇİRİLİB



səh. 3

### Bakıda "Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi - 16: nəticələr və perspektivlər" mövzusunda konfrans



səh. 3

### "Komissiyanın yaradılması olduqca zəruri idi"



səh. 6

### Dövlət Komitəsi dini icmaların layihələrini maliyyələşdirib



səh. 7

### "DİNİ RADİKALİZMLƏ MÜBARİZƏNİN BAŞLICA YOLU: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ"

səh. 10

### Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi 2016-cı ilin yekunlarına həsr olunan "Hesabat" çap edib

səh. 13

### TERRORA QARŞI İSLAM HƏMRƏYLİYİ

səh. 14

# "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alır:

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355; 2015, № 4, maddələr 364, 367, № 11, maddə 1257, № 12, maddə 1443; 2016, № 12, maddə 1985) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin dördüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Dini mərkəz tərəfindən dəvət edilmiş din xadimləri istisna olmaqla, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılması qadağandır.".

2. 21-ci maddənin üçüncü hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşları Qafqaz Müsəlmanları İdarəsi tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla islam dininə aid ayin və mərasimlərin aparılmasına buraxıla bilərlər.".

3. 24-cü maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Vətəndaşların təhsil almaq üçün xarici ölkələrin dini tədris müəssisələrinə göndərilməsi, dini tədris müəssisələri tələbələrinin və müəllimlərinin, habelə din xadimlərinin və mütəxəssislərinin mübadiləsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla dini mərkəz tərəfindən həyata keçirilir".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 may 2017-ci il.**

# "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 674-VQD nömrəli Qanununun tətbiqi haqqında və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 674-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 329; 2012, № 4, maddə 294; 2013, № 8, maddə 908; 2015, № 9, maddə 987) 2.2-ci bəndində "9-cu bəndində," sözlərindən sonra "21-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 iyun 2017-ci il.**

# AZƏRBAYCANDA DİNİ QURUMLARA MALİYYƏ YARDIMI GÖSTƏRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Sivilizasiyaların qovuşuğunda yerləşən və birləşdirici körpü rolunu oynayan Azərbaycan qədim mədəniyyət mərkəzlərindən biri olaraq özünün unikal geosiyasi mövqeyi sayəsində multikultural nailiyyətlər qazanmış və tolerantlıq mühitinin formalaşmasına əvəzsiz töhfələr vermişdir. Onun, eyni zamanda, İslam dininin yayılması və Müsəlman İntibahının bərqərar olmasında özünəməxsus yeri vardır. Ölkəmizdə ötən "Multikulturalizm İli"nin davamı kimi 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi məhz həmin çoxəsrlik zəngin tarixi təcrübənin günümüzdəki rəmzi ifadəsidir.

Müasir Azərbaycan cəmiyyətində bərqərar olmuş yüksək tolerantlıq modeli və müxtəlif konfessiyalar arasında mövcud ahəngdarlıq müstəqil dövlətçiliyin inkişafı baxımından xüsusi əhəmiyyət daşımaqla yanaşı, sivilizasiyalararası dialoqda bir sıra problemlərin meydana çıxdığı və milli, dini zəmində münaqişələrin artma tendensiyasının müşahidə olunduğu hazırkı dövrdə multikultural dəyərlərin təbliği baxımından nümunə təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 250,0 (iki yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 250,0 (iki yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 100,0 (yüz) min manat, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna 100,0 (yüz) min manat və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasına 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 iyun 2017-ci il.**

# HACI CAVAD MƏSCİDİNİN YASAMAL RAYONU ƏRAZİSİNDƏ YENİ ÜNVANDA TƏMƏLİNİN QOYULACAĞI MƏKANA BAXIŞ KEÇİRİLİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi əsasında Bakı şəhəri, Yasamal rayonu, Abdulla Şaiq küçəsi 79 ünvanında yerləşən Hacı Cavad məscidinin həmin rayonun ərazisində yeni ünvanda təməlinin qoyulacağı məkana baxış keçirilib.

Məscidin yeni binasının inşa olunacağı əraziyə gələn Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov Ramazan ayında dindarlara belə bir xoş töhfəni bəxş edən dövlətimizin başçısının milli-mənəvi dəyərlərimizə böyük ehtiram və qayğısını xüsusi vurğulayıb. O, Azərbaycanda, o cümlədən paytaxtımız Bakı şəhərində gedən genişmiqyaslı tikinti, yenidənqurma işlərinin, xalqımızın rifahı və daha rahat, müasir dövrün tələblərinə cavab verən səviyyədə yaşayışına xidmət edən tədbirlərin, böyük qayğı və məhəbbətlə bərpa edilən tarixi və dini məkanların Prezident İlham Əliyevin, həmçinin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səy və fəaliyyətlərinin bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Tikiləcək məscidin ərazisi, layihəsi, eskizləri, memarlıq cəhətdən özəllikləri ilə yaxından tanış olan Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin dindarların qayğılarına hər zaman diqqətlə yanaşdığını bildirərək, Bakı şəhərinin keçmiş "Sovetski" adlanan məhəlləsinin dindarlarına edilən bu böyük hədiyyəni yüksək qiymətləndirib. Bütün Azərbaycan dindarlarına töhfə olacaq, milli memarlığımızın ən gözəl ənənələrini ehtiva edən məscid binasının tikintisinin mübarək Ramazan ayında başlanmasının mənəvi əhəmiyyətini və xeyirlərə vəsilə olacağını xüsusi vurğulayan şeyxülislam belə bir diqqət və himayəyə, maddi və mənəvi dəstəyə görə dövlətimizin başçısına dərin minnətdarlıq ifadə edib. QMİ sədri Ümummilli Liderimiz Heydər Əliyevin Bibiheybətdən başlatdığı mənəvi dəyərlərin dirçəldilməsi missiyasını ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin Uca Allaha xoş gedən əməlləri ilə bütün dindarların ehtiram, məhəbbətini qazandığını və böyük savab sahibi olacağını xüsusi vurğulayıb. Ölkəmizdə din-dövlət münasibətlərinin yüksək səviyyəsindən məmnunluğunu bildirən A.Paşazadə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinin bu işdə rolunu xüsusi vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlətimizin başçısının dindarların mənəvi ehtiyaclarının ödənilməsi üçün tikiləcək yeni məscid binasının yerləşdiyi məkanın olduqca münasib, layihəsinin nəfis tərtibatlı olmasının Azərbaycan dövlətinin, şəxsən Prezidentin diqqət və dəstəyinin nəticəsi olduğunu bildirib. Komitə sədri ümidvar olduğunu bildirib ki, gələn ilin Ramazan ayınadək hazır olacaq Hacı Cavad məscidinin yeni binası Azərbaycan dindarlarına gözəl bayram hədiyyəsi olacaq.



Toplantıda Hacı Cavad məscidinin ibadət əhli adından çıxış edən dindarlar belə bir dəyərli töhfəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə öz dərin minnətdarlıqlarını, dövlətimizin başçısına təşəkkür məktubu ünvanlamaq niyyətində olduqlarını bildiriblər. Mübarək Ramazan ayında onları sevindirən belə bir ali diqqət və qayğını xüsusi dəyərləndirən dindarlar çıxışlarında birmənalı şəkildə qeyd ediblər ki, müqəddəs dini dəyərlərimizə böyük ehtiramla həyata keçirilən misilsiz işlərə kölgə salmaq niyyətində olan, müstəqil dövlətimizin uğurlarını gözü götürməyən bədxah dairələrin təxribatları heç zaman nəticə verməyəcək. Çıxışçılar Azərbaycan xalqının tarixi, milli-mədəni, dini-mənəvi irsinə göstərilən diqqət və qayğını hədsiz dəyərləndirdiklərini və yeni məscid binasının ərsəyə gələcəyinə görə məmnun olduqlarını bildiriblər.

# Bakıda "Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi - 16: nəticələr və perspektivlər" mövzusunda konfrans

İyunun 21-də Bakıda "Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi - 16: nəticələr və perspektivlər" mövzusunda konfrans keçirilib.

Konfransı açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı keçən dövr ərzində Dövlət Komitəsinin fəaliyyəti barədə məlumat verib. Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələrinin mehriban, sərbəst şəkildə yaşadıqlarını vurğulayan M.Qurbanlı ölkəmizdə multikulturalizm ənənələrinin dərin köklərə malik olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanda tolerantlıq mühitini daha da genişləndirmək üçün müxtəlif kurslar, sərgilər keçirilir, bölgələrimizdə din xadimlərinin görüşləri təşkil olunur. DQİDK tərəfindən Azərbaycanda tolerantlıq ənənələri, dözümlülük, dinc birgəyaşayış mədəniyyətinin beynəlxalq aləmdə təbliği, eləcə də dini ekstremizm və terrorizm kimi bəşəriyyəti narahat edən problemlərdən birgə çıxış yolları axtarmaq məqsədilə xeyli beynəlxalq tədbirlər keçirilib.



Komitə sədri onu da vurğulayıb ki, dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, radikalizm, terrorizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranının yaşandığı bir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın ənənəvi milli, tarixi irsinə söykənərək qlobal miqyasda ümumbəşəri ideyaların himayədarı kimi çıxış edir. Bu sabitliyi qorumaq üçün Komitə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə yaxından əməkdaşlıq edir.

Sonra DQİDK sədrinin müavini Gündüz İsmayılov ötən dövr ərzində qurumun fəaliyyəti barədə geniş təqdimatla çıxış edib. Təqdimatda Dövlət Komitəsinin fəaliyyəti barədə məlumatlar, fotoşəkillər və inkişaf göstəriciləri əks olunub.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov öz çıxışında Azərbaycanda dövlət-din münasibətlərinin sağlam təməl üzərində formalaşdığını və inkişaf etdiyini bildirib. O vurğulayıb ki, milli-mənəvi dəyərlərin inkişafına dövlət tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Azərbaycan multikulturalizminə olan maraq respublikamızın dünyada tarixi örnək dəyərlərə malik ölkə kimi tanıdılmasının nəticəsidir. Azərbaycanda 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsinin təqdirəlayiq olduğunu vurğulayan S.Novruzov deyib ki, bu addımlar Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirən təşəbbüslərdir. Müqəddəs dinimizin sülhsevər mahiyyətinin dünya miqyasında təbliği istiqamətində əməli səylər göstərən dövlətimizin başçısının "İslam Həmrəyliyi İli" ideyası yalnız İslam dünyası daxilində deyil, İslam dini ilə digər dinlər arasında həmrəyliyin harmoniyasını ehtiva edir.

QMİ sədrinin müavini Rəşad Əliyarlı deyib ki, bu gün İslam həmrəyliyi İslam dünyası üçün çox mühüm məsələdir. Əgər dünyada sülh, əmin-amanlıq istəyiriksə, biz müxtəlif dinlərin, mədəniyyətlərin, sivilizasiyaların harmoniyasına nail olmalıyıq. İslam həmrəyliyi müasir dünyamızda mühüm önəm kəsb edən məsələlərdən biridir, ona mədəni və dini müxtəlifliyin harmoniyası prizmasından yanaşmaq məsələnin aktuallığını xüsusilə artırır. Bu yanaşma İslam daxilindəki anlaşılmazlıqların, eləcə də dinlərarası ziddiyyətlərin aradan qaldırılmasına öz töhfəsini verəcək. Komitənin fəaliyyəti barədə danışan R.Əliyarlı DQİDK-nın ölkəmizdə dini sabitliyin qorunmasında yorulmaz fəaliyyətini yüksək dəyərləndirdiyini vurğulayıb.

Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr İşein, Roma-Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Alban-udi xristian dini icmasının sədri Robert Mobili və Avropa Yəhudilərinin Bakı dini icmasının sədr əvəzi Aleksandr Şarovski ölkəmizdəki multikultural vəziyyət barədə məlumat veriblər. Bu vəziyyətdən məmnun olduqlarını bildirən çıxışçılar komitənin bu durumun qorunmasında fəaliyyətini yüksək qiymətləndiriblər.

Konfransda, eyni zamanda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr İşeini 65 illik yubileyi münasibətilə təbrik edib, ölkəmizdəki tolerant və multikultural mühitin gücləndirilməsindəki fəaliyyətində uğurlar arzulayıb, ona xatirə hədiyyəsi təqdim edib.

Sonra Fəxri fərmana layiq görülmüş bir qrup komitə əməkdaşına mükafatları təqdim olunub.

# İSLAM DİNİ VƏ MƏDƏNİYYƏTİNİN TƏBLİĞİ PRİORİTET MƏSƏLƏLƏRDƏNDİR



Azərbaycan İslam ölkəsidir və bizim mənəvi dəyərlərimizin tərkib hissəsi olan İslam dininə dünyada 1 milyard 700 milyondan çox insan etiqad edir. Biz də bu dəyərləri yaşadan ölkələr sırasında olmaqla, İslamı yad təsirlərdən qorumalıyıq.

Bu fikirlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iyunun 22-də keçirilən "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusundakı regional konfransda səsləndirilib.

Tədbirdə bölgədə fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, dini işlər üzrə komissiyaların üzvləri, dini icma sədrləri, din xadimləri, imam və axundlar, idarə və müəssisə rəhbərləri, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev maarifləndirmə məqsədilə keçirilən konfransın əhəmiyyətindən, Qəbələdəki dini durumdan danışıb, rayonda qeydiyyatdan keçən dini icmalara fəaliyyət göstərmələri üçün lazımi şərait yaradıldığını bildirib. Milli-mənəvi dəyərlərimizin qorunmasının vacibliyini diqqətə çatdıran rayon icra hakimiyyətinin başçısı dövlətin bu sahəyə qayğısını xüsusi vurğulayıb. Qeyd edib ki, dini-etiqad azadlığının təmin olunması, rayonda dini icmalar arasında qarşılıqlı əlaqələrin yüksək səviyyədə qurulması üçün lazımi tədbirlər həyata keçirilir.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, tədbirin əsas məqsədi dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili və aparılması, həmçinin dini icmaların cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və sosial problemlərin həlli prosesinə cəlb olunmasıdır. Komitə sədri ölkəmizdə dövlət-din münasibətləri ilə bağlı Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycanda dinlərarası münasibətlərin yüksək səviyyədə olduğunu, hər kəsin dini etiqad azadlığının qorunduğunu vurğulayıb.

Mübariz Qurbanlı ölkəmizdə tarixən tolerantlıq mühitinin, dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətlərinin hökm sürdüyünü, dövlət-din münasibətlərinin zəngin milli, tarixi ənənəyə əsaslandığını və beynəlxalq hüquqi normalarla tənzimləndiyini bildirib. Diqqətə çatdırıb ki, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan, o cümlədən ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam dini və mədəniyyətinin təbliği prioritet məsələlərdəndir: "Azərbaycan dünyaya inteqrasiya edən ölkədir, amma bununla yanaşı, biz öz milli-mənəvi dəyərlərimizi də qoruyuruq. Hazırda dünyada İslam dinini radikalizmə sürükləmə meyilləri artmaqdadır. Çünki İslam dini haqqında yanlış məlumatlar insanların düşüncələrində mənfi fikir yaradır. Buna görə də dini maarifləndirmə işinə daha diqqətli yanaşılmalı, bu sahədə görülən tədbirlər davam etdirilməlidir"

Mübariz Qurbanlı qeyd edib ki, milli-mənəvi, dini adət-ənənələrimizi, tolerantlıq mühitimizi qorumalı və yaşatmalıyıq. Bu cür maarifləndirici tədbirlərin gələcəkdə də davam etdiriləcəyi vurğulanıb.

Tədbirdə Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov çıxış edərək, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyini, milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını xatırladıb, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Fəttah Heydərov bildirib ki, ölkəmizdə hökm sürən etnik və dini tolerantlıq mühiti dünyaya nümunədir. Respublikamızda istər dini, istərsə də milli və irqi ayrı-seçkilik yoxdur, bütün xalqların nümayəndələri, o cümlədən müxtəlif dinlərin təmsilçiləri arasında bir-birinə tolerant yanaşma var. İslamın yad təsirlərdən qorunmasında, dini radikalizmə qarşı mübarizədə hər kəs yaxından iştirak etməli, bu sahədə maarifləndirmə işi ardıcıl və məqsədyönlü şəkildə aparılmalıdır.

"Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib. Bu gün ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədədir. Hər kəsin dini etiqad azadlığı var. Əsrlərin süzgəcindən keçərək müasir dövrümüzədək qoruyub saxladığımız milli-mənəvi, dini adət-ənənələrimizi yaşatmalı və onu düzgün şəkildə insanlara çatdırmalıyıq. Din sahəsində ideoloji cəhətdən boşluğun yaranmasına imkan verməməliyik", - deyə Fəttah Heydərov bildirib.

Konfransda iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Ceyhun Rüstəmov ölkəmizdəki dövlət-din münasibətlərindən, dövlətin dinə qayğısından danışaraq, dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini vurğulayıb. O, ənənəvi İslam dəyərləri və çağdaş problemlərdən də ətraflı söz açıb.

Alban-udi xristian dini icmasının sədri Robert Mobili Azərbaycandakı tolerantlıq mühitindən, dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların dini etiqad azadlığının təmin olunmasından, dövlətin dini konfessiyalara qayğısından danışıb. Qeyd olunub ki, Azərbaycanda tarixən tolerant cəmiyyətin bərqərar olması burada məskunlaşmış azsaylı xalq və etnik qruplara, o cümlədən udilərə öz varlığını qoruyub saxlamağa əlverişli mühit yaradıb. Bu gün də Azərbaycan dövləti udi icmasının fəaliyyətinə qayğı ilə yanaşır. 2003-cü ildə Nic qəsəbəsindəki, 2010-cu ildə isə Oğuzdakı Alban-udi xristian dini icması qeydiyyatdan keçib.

Sonra konfrans Qəbələ şəhər 5 nömrəli tam orta məktəbdə "Dini radikalizmlə mübarizədə gənclərin rolu" mövzusunda panel iclası ilə davam edib.

Panel iclasını açan rayon icra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova Qəbələdə həyata keçirilən dini maarifləndirmə tədbirlərindən, eyni zamanda, gənclərin milli-mənəvi dəyərlərə uyğun tərbiyə olunmasının zəruriliyindən danışıb.

Rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Absalam Hüseynov rayondakı sabit dini durum və təhsil müəssisələrində keçirilən maarifləndirmə tədbirləri barədə məlumat verib.

Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Sultanov çıxışında gənclərin maarifləndirilməsi istiqamətində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Gənclər və İdman Nazirliyi ilə birgə həyata keçirilən tədbirlərin əhəmiyyətinə toxunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxış edərək gənc nəslin ənənəvi dini və milli dəyərlərimizə, bu dəyərlərin əsas prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasının vacibliyini vurğulayıb. Sədr müavini dindən siyasi məqsədlər üçün istifadə etməyə çalışan, insanları radikallığa çağıran, xalqımızın yüz illər boyu formalaşmış dözümlülük ənənələrinə, milli-mənəvi dəyərlərinə xələl gətirmək istəyən qüvvələrə qarşı mübarizədə hər kəsin fəal olmasının zəruriliyini qeyd edib. Bildirib ki, bu baxımdan dövlətçiliyimizi və milli-mənəvi irsimizi qorumaq, eləcə də təbliğ etmək, sözügedən istiqamətdə iş aparmaq dövlət qurumları ilə yanaşı, həm də dini icmaların, ictimai təşkilatların, ümumiyyətlə, hər bir vətəndaşın başlıca vəzifəsi olmalıdır.

DQİDK-nın dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov məruzəsində müsəlman aləminin inkişafına mane olan amillərdən, İslam dininin dünyada həmrəyliyin təmin olunmasındakı əhəmiyyətindən danışıb.

Sonda konfrans iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Dövlət Komitəsinin sədri Qəbələdə vətəndaşları qəbul edib



***Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyunun 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qəbələ rayonunda bölgə vətəndaşlarını qəbul edib.***

Qəbuldan öncə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayon icra hakimiyyətinin inzibati binasının foyesində Ümummilli Lider Heydər Əliyevin büstü önünə tər gül dəstələri qoyub, Ulu Öndərin əziz və parlaq xatirəsini ehtiramla yad ediblər.

Qəbələ Mədəniyyət Mərkəzində keçirilən qəbulda Komitə sədri Mübariz Qurbanlı Oğuz, Şəki və Qəbələ rayonlarından olan sakinlərin müraciətlərinə baxıb.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin dini təyinatlı kitablarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərə dair müraciətlər isə aidiyyatı qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

# Dövlət Komitəsində görüşlər

İyunun 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı İran İslam Respublikasının (İİR) Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi ilə görüşüb.



Görüşdə iki ölkənin din və mədəniyyət sahəsində əməkdaşlığının daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub. Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycanla İran arasında bütün sahələrdə olduğu kimi, din və mədəniyyət sahəsində də əlaqələr yüksək səviyyədə qurulub. Ulu Öndər Heydər Əliyevin Azərbaycan-İran əlaqələrinə hər zaman böyük diqqət yetirdiyini bildirən Mübariz Qurbanlı deyib ki, bu siyasət Prezident İlham Əliyev tərəfindən ardıcıl davam etdirilir. Səmimi qəbula görə təşəkkürünü bildirən Əsgər Farsi iki qardaş ölkənin ortaq mədəniyyətinin uzun və dərin tarixə malik olduğunu qeyd edib, bu əlaqələrin daha da genişlənməsinin vacibliyindən danışıb. O, Prezident İlham Əliyev tərəfindən elan olunan “İslam Həmrəyliyi İli”nin müsəlmanlar arasında vəhdətə, əməkdaşlığa, daha mütərəqqi addımlar atmağa dəvət olduğunu vurğulayıb.

***



İyunun 5-də DQİDK sədri Mübariz Qurbanlı Türkiyə Dəyanət İşləri Başqanlığının sabiq rəhbəri Təyyar Altıkulacı qəbul edib. Görüşdə iki ölkə arasında din sahəsində qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub. Azərbaycan ilə Türkiyə arasında dərin köklərə malik olan ikitərəfli əlaqələrdən məmnunluqla söhbət açan M.Qurbanlı ölkəmizin xarici siyasətində Türkiyə ilə əməkdaşlığın daha da genişləndirilməsinin daim diqqət mərkəzində olduğunu qeyd edib. Dövlət başçısının din sahəsində həyata keçirdiyi siyasəti müsbət qiymətləndirən Təyyar Altıkulac Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin respublikamızda “İslam Həmrəyliyi İli”nin elan edilməsinin müsəlman dünyasında həmrəyliyin inkişafına töhfə olduğunu bildirib. Görüşdə Türkiyənin ölkəmizdəki səfirliyinin din işləri üzrə müşaviri Kamil Günəş və DQİDK-nın sədr müavini Gündüz İsmayılov da iştirak ediblər.

***



DQİDK sədri Mübariz Qurbanlı Azərbaycanın tolerantlıq mühiti, xüsusilə Ramazan ənənələri barədə sənədli film çəkmək məqsədilə ölkəmizdə səfərdə olan Pakistanın “A-plus” telekanalının prodüseri Madiha Macidi qəbul edib. Görüş zamanı Azərbaycanın qədim dini tolerantlıq və multikulturalizm ənənələrindən danışan Dövlət Komitəsinin sədri ölkəmizdə tarixən müsəlmanların, xristianların, yəhudilərin dinc və qarşılıqlı ehtiram şəraitində yaşadıqlarını, multikulturalizm və tolerantlığın Azərbaycan dövlətinin xüsusi diqqəti və qayğısı nəticəsində dövlət siyasətinə çevrildiyini bildirib. Ölkəmizə ilk dəfə səfər etdiyini deyən Madiha Macid burada qarşılaşdıqları qonaqpərvərliyə və səmimi münasibətə heyran qaldıqlarını bildirib. Sənədli film barədə məlumat verən qonaq filmdə Azərbaycanda tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunması, multikulturalist ənənələrə söykənən ictimai münasibətlər, xüsusilə Ramazan ayının yüksək səviyyədə keçirilməsi barədə məlumatların öz əksini tapacağını qeyd edib. Pakistanlı qonaq çəkilişləri Bakıda və bölgələrdə baş tutacaq sənədli filmdə dünyada ilk dəfə məzhəbindən asılı olmayaraq bütün müsəlmanların bir araya gələrək, eyni vaxtda bir sırada namaz qılıb, dualar etdiyi vəhdət namazı ilə bağlı informasiyanın da geniş yer alacağını deyib. Sonda qonaqlara Dövlət Komitəsinin nəşr etdirdiyi kitablar təqdim edilib.

***



İyunun 19-da DQİDK sədri Mübariz Qurbanlı Gürcüstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teymuraz Şaraşenidzeni qəbul edib. Görüş zamanı Azərbaycan ilə Gürcüstan arasında dini sahədə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub. M.Qurbanlı bildirib ki, Azərbaycanda ikisi gürcü pravoslav xristian dini icması olmaqla 28 qeyri-müsəlman dini icması dövlət qeydiyyatından keçib və vurğulayıb ki, müsəlman dini icmalarla yanaşı qeyri-müsəlman dini icmalara da hərtərəfli diqqət və yardım göstərilir. Teymuraz Şaraşenidze ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulmasından məmnun olduğunu bildirib. Səfir iki ölkə arasında mövcud münasibətlərin və qarşılıqlı əməkdaşlığın qorunub saxlanılmasının və inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb, həmçinin Dövlət Komitəsinin sədrini və əməkdaşlarını müqəddəs Ramazan bayramı münasibəti ilə təbrik edib. Görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı və sədr müavini Səyavuş Heydərov da iştirak ediblər.

# “MİLLİ QURTULUŞ GÜNÜ AZƏRBAYCANI XAOSDAN İNTİBAHA APARDI”

***“Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı həqiqi mənada, tarixi, ümummilli və siyasi baxımdan da Milli Qurtuluş Günü kimi qeyd olunur. 15 iyun tarixinin Milli Qurtuluş Günü kimi qeyd olunması təsadüfi deyil. Bu, tarixi hadisələrdən nəticələrin ümumiləşdirilməsi əsasında əldə olunan qərardır və qərar həmin dövrün deputatlarının təklifi əsasında aparılan geniş müzakirələrdən sonra Milli Məclis tərəfindən qəbul edilib”.***

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O bildirib ki, 1990-cı illərdə baş verənləri gözü ilə görənlərlə yanaşı, onu kitablardan oxuyanlar da var: “Bu baxımdan belə əlamətdar günlərlə bağlı geniş tədbirlər keçirilməlidir ki, gənclərimiz həmin dövrdə baş verənlərlə bağlı məlumatlansınlar. Azərbaycanın dövlət müstəqilliyi əldə edildikdən sonra millət olaraq qarşımızda çox mühüm vəzifələr dayanırdı ki, bunlardan biri də milli müstəqilliyin dönməzliyini təmin etmək idi. Bunu təmin etmək üçün isə müəyyən şərtlər var idi ki, onları mütləq şəkildə həyata keçirmək lazım idi. Sovet İttifaqının süqut etməsi, onun müxtəlif yerlərində ayrı-ayrı hadisələrə gətirib çıxarmışdı. Sovet İttifaqı çökməzdən öncə də həm Azərbaycanda, həm də Baltik Respublikalarında, Gürcüstanda, Qazaxıstanda böyük qan tökülməsi ilə müşahidə olunan hadisələr baş vermişdi. Onlardan ən böyüyü isə 20 Yanvarda Azərbaycanda baş verən faciə idi. Ona görə də Sovetlər İttifaqı çökdükdən sonra bütün xalqlar kimi, Azərbaycan xalqı da öz dövlət müstəqilliyininin bərpasını həyata keçirərək bir sıra səyləri, vacib məsələləri həll etməli idi. Ümumiyyətlə, tarixdə Azərbaycan xalqının böyük izi var və biz bu tarixi nailiyyətləri unutmamalıyıq”.

Mübariz Qurbanlı qeyd edib ki, 1990-ci illərin əvvəllərindən Azərbaycanın başqa müstəqillik qazanan xalqlardan fərqli cəhətləri var idi: “Belə ki, həmin dövrdə Azərbaycan Ermənistan tərəfindən təcavüzə məruz qalmışdı və xalqımız həmin müharibəni apara-apara müstəqil dövlət quruculuğunu həyata keçirməli idi. Bundan başqa həmin dövrdə Azərbaycanda proseslərdə siyasi təcrübəsi olmayan insanların siyasi arenada üst mövqeyə çıxması və ölkənin gələcək taleyinin həlli ilə əlaqədar mühüm strateji vəzifələrin düzgün, dəqiq müəyyən edə bilməyən adamların idarəçiliyə gəlməsi ölkəmiz üçün müəyyən çətinlik və problemlər yaratmışdı. Biz başqa Respublikalara baxsaq, orada siyasi elitanın ölkəsinin qarşısında duran vəzifələri dəqiq müəyyən edə bilməsini görə bilirik. Buna görə də onlar daha az təhlükə ilə üzləşmiş və problemlərini daha tez həll edə bilmişdilər. Bu baxımdan da Azərbaycanın müstəqilliyinin ilk illəri əslində ölkəmizdə xaos, qarşıdurma dövrü kimi və millətin qarşısında olan vəzifənin dəqiq şəkildə müəyyən edilməməsi ilə xarakterizə olunur. Məhz bunun nəticəsi idi ki, siyasi hakimiyyət uğrunda mübarizə qarışıqlıq olaraq Azərbaycanda qrupların toqquşmasına gətirib çıxarırdı ki, bundan da xarici qüvvələr xüsusilə də Ermənistan əlverişli şəkildə istifadə edərək ölkəmizə qarşı təcavüzünü genişləndirdi. Çox böyük, müdrik bir siyasət qurulmalı və bununla da Azərbaycanı xarici təhlükələrdən qorumaq, eyni zamanda ümumilli vəzifələri dəqiqləşdirərək milləti həmin vəzifələr ətrafında sıx birləşdirmək lazım idi. Lakin bu, çox ciddi məsələ idi. Bunu yalnız Ümumilli Lider Heydər Əliyev yerinə yetirə bildi”.

YAP icra katibinin müavini əlavə edib ki, Ulu Öndərin hakimiyyətə qayıdışı şəxsi ideya deyil, Azərbaycançılıq ideyasının təşəbbüsü idi: “Ümummilli liderin atdığı addımlar Azərbaycanı gerilikdən inkişafa, xaosdan intibaha apardı. Bu baxımdan 15 İyun- Milli Qurtuluş Günü bizim tariximizdir”.

# "Komissiyanın yaradılması olduqca zəruri idi"



Prezident İlham Əliyev "Soyqırımı Memorial Kompleksi"ndəki mövcud vəziyyətin araşdırılması və baş verən proseslərin qarşısının alınması məqsədilə müvafiq tapşırıq verib. Dövlət başçısının tapşırığına uyğun olaraq, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev "Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" ilə bağlı bəzi məsələlər haqqında" Sərəncam imzalayıb. Sənədə əsasən, kompleksin mövcud vəziyyətinin araşdırılması və görüləcək işlər barədə müvafiq təkliflərin hazırlanması üçün komissiya yaradılıb. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov komissiyanın sədri təyin edilib. İyunun 9-da həmin komissiya üzvlərinin iştirakı ilə "Soyqırımı memorial kompleksi"nin məzarlıq hissəsində insan sümüklərinə və sürüşmə hallarının aktivləşdiyi ərazilərə baxılıb, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Memorial Kompleks ziyarət olunub, problemlə bağlı Quba Rayon İcra Hakimiyyətində iclas keçirilib. Kompleksin məzarlıq hissəsində yaranmış mövcud vəziyyət, bununla əlaqədar aparılan müzakirələr, atılacaq addımlarla bağlı "Kaspi"nin suallarını komissiyanın üzvü, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı cavablandırıb.

***- Mübariz müəllim, öncə bu kompleksin Azərbaycan tarixi və xalqı üçün əhəmiyyəti barədə fikrinizi öyrənmək istərdik.***

- Biz tariximizdə baş verən hadisələr barədə həqiqətləri daim öyrənməli, gələcək nəsillərə çatdırmalıyıq. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra tarixi keçmişimiz, bütövlükdə ölkəmizə qarşı törədilən haqsızlıqlar, təcavüzkarlıqlar, eyni zamanda, əldə edilən uğurlar barədə çox obyektiv tədqiqatlar aparılıb. Bəllidir ki, müstəqil olmayan xalqın tarixi də müstəqil ola bilməz. Hansısa bir xalq müstəqil olmadıqda, onun tarixi özü tərəfindən deyil, həmin xalqı himayə edənlər tərəfindən yazılır. Buna görə də dövlət müstəqilliyimiz Ulu Öndər Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan xalqının tarixi nailiyyətidir. Bu nailiyyət içərisində keçdiyimiz tarixi yolu da dəqiq şəkildə öyrənərək, təhlil edərək xalqımıza çatdıra bilirik. Xalqımıza qarşı törədilmiş olan soyqırımılar, vəhşiliklər, işğallar və sair tarixi hadisələrin də geniş şəkildə öyrənilməsinə, tədqiq edilməsinə, tanıdılmasına ehtiyac var. Vaxtilə Ulu Öndər Heydər Əliyevin, eləcə də dövlət başçısı İlham Əliyevin birbaşa tapşırıqları ilə bu istiqamətdə bir sıra işlər görülüb, araşdırmalar nəticəsində bir sıra faktlar üzə çıxarılıb. Ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər araşdırılıb, çoxsaylı tədqiqat əsərləri, kitablar ortaya qoyulub. İndi də bu proses davam etdirilməlidir. 1918-ci ilin 31 mart soyqırımı ermənilər azərbaycanlılara qarşı tətbiq etdiyi soyqırımı siyasətinə daha bir nümunədir. Quba rayonu ərazisindəki "Soyqırımı Memorial Kompleksi" də bu tarixi faciənin, erməni vəhşiliyinin öyrənilməsi, geniş dünya ictimaiyyətinə çatdırılması baxımından olduqca mühüm əhəmiyyət daşıyır.

***- Son vaxtlar kompleksin məzarlıq hissəsindəki vəziyyətin araşdırılması və görüləcək işlər barədə müvafiq təkliflərin hazırlanması üçün komissiya yaradılıb.***

- Məlumdur ki, 2007-ci il aprelin 1-də Quba ərazisində torpaq işləri görülərkən kütləvi insan məzarlığı aşkar edilib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, erməni vəhşiliyinin araşdırılması və dünya ictimaiyyətinə çatdırılması məqsədilə 2007-ci ilin iyulundan etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılıb. 2008-ci ilin sentyabrında tədqiqat işləri başa çatdırılıb. Tədqiqat nəticəsində kütləvi məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdiyi soyqırımı ilə bağlı olduğu müəyyən edilib. 2009-cu ildə Nazirlər Kabinetinin sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib. Beləliklə aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. 30 dekabr 2009-cu ildə Prezident İlham Əliyev erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarını və təcavüz siyasətini, qanlı cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədi ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılması haqqında Sərəncam imzalayıb. 2013-cü il sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışını ediblər. Buradakı muzeydə erməni vəhşiliyi mühüm sənədlər əsasında xarici və yerli qonaqlara nümayiş etdirilir. Eyni zamanda, orada sənədli filmlər də göstərilir. Həmin muzeyi minlərlə insan ziyarət edib. Muzeylə bərabər, ərazidə kütləvi insan cəsədlərinin qalıqları kompleksin digər ərazisində olduğu kimi ziyarətçilərə nümayiş etdirilir. Son dövrlər kompleksin məzarlıq hissəsindəki ərazidə açıq havada qalan insan sümüklərinin təbii proseslər nəticəsində çürüməsi, torpağın eroziyaya uğraması və sürüşmə hallarının aktivləşməsi müşahidə olunub. Ona görə də Azərbaycan Prezidenti İlham Əliyev kompleksin mövcud vəziyyətinin araşdırılması və baş verən proseslərin qarşısının alınması məqsədilə müvafiq tapşırıq verib. Prezidentin tapşırığına uyğun olaraq, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev müvafiq sərəncam imzalayıb. Sənədə əsasən, kompleksin mövcud vəziyyətinin araşdırılması və görüləcək işlər barədə müvafiq təkliflərin hazırlanması üçün komissiya yaradılıb. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov komissiyanın sədri təyin edilib. Komissiyaya araşdırmanın nəticələri və görüləcək işlər barədə təkliflərini bir ay müddətində Prezident Administrasiyasına təqdim etməsi həvalə olunub. Düşünürəm ki, komissiya kompleks ərazisində özünü göstərən problemin öyrənilməsi, həmin problemin aradan qaldırılması istiqamətində atılacaq addımların müəyyən edilməsində mühüm rol oynayacaq.

***- Komissiyanın üzvü kimi kompleksin məzarlıq hissəsində yaranmış mövcud vəziyyətlə yerindəcə tanış oldunuz. Bilmək istərdik, orada özünü göstərən əsas problem nədən ibarətdir?***

- Kompleksin ərazisindəki toplu məzarlıq xüsusi tikili altındadır. Bu ərazinin yaxınlığından su arxının keçməsi, rütubətin yaranması oradakı sümüklərin deformasiyaya uğraması təhlükəsini yaradıb. Biz komissiya üzvləri vəziyyətlə yerində tanış olduq, ardınca Quba Rayon İcra Hakimiyyətində bununla bağlı iclas keçirdik. İclasda problem geniş müzakirə olundu, müxtəlif təkliflər səsləndirildi. Yekun qərar bundan ibarət oldu ki, insan cəsədlərinin qalıqları xüsusi şüşədən hazırlanmış bir vasitə arxasında saxlanılsın, nümayiş etdirilsin. Bununla da, hər hansı təbiət hadisəsi nəticəsində onlara zərər dəyməsinin qarşısı alınsın. Müzakirələrdə komissiya üzvləri ilə yanaşı, mütəxəssislər də iştirak edirdilər. Belə qərara gəlindi ki, komissiyanın ilk iclası, hadisə yerinə baxışı və müzakirələr nəticəsində əldə olunan nəticələr ümumiləşdirilsin, komissiyanın adından dövlət başçısına məruzə olunsun. Bundan sonra həmin ərazinin mühafizəsi və gələcək nəsillərə çatdırılması üçün müvafiq tədbirlər görülsün. Komissiya üzvü kimi mən də oradakı müzakirələrdə fikrimi səsləndirdim. Prosesə dini baxımdan, İslami dəyərlər çərçivəsində yanaşma da ortaya qoyuldu. Ümumi fikir belədir ki, üzdə olan və erməni vəhşiliklərini əyani şəkildə nümayiş etdirən toplu məzarlıq, cəsəd qalıqları qorunmaq şərtilə olduğu kimi saxlanılsın. Düşünürəm ki, komissiyanın yaradılması, orada müşahidə edilən vəziyyətin araşdırılması və nəticə etibarilə problemin aradan qaldırılması istiqamətində addımların atılması olduqca zəruri idi.

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ "BNEY BRİT" BEYNƏLXALQ TƏŞKİLATININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜB

İyunun 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə yaşayan yəhudilərin vəziyyəti ilə tanış olmaq, İsrail-Azərbaycan əlaqələrinin daha da möhkəmlənməsinə çalışmaq məqsədilə Azərbaycanda səfərdə olan "Bney Brit" beynəlxalq təşkilatının prezidenti Qari Saltzmən və nümayəndə heyətinin üzvləri ilə görüşüb.



Görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Aparat rəhbəri Alim Süleymanov, təşkilatın icraçı direktoru Daniel Mariaşin, BMT və Əlaqələndirmə Məsələləri üzrə direktoru Devid Maykls, eləcə də təşkilatın direktorlar şurasının və nümayəndə heyətinin üzvləri, Avropa Yəhudiləri Bakı dini icmasının baş ravvini Şneor Siqal da iştirak edib.

Dövlət Komitəsinin sədri M.Qurbanlı bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdeki dinlər və etnik qruplar arasındakı münasibətlər Ümummilli Liderimiz Heydər Əliyevin dövlətçilik konsepsiyasına uyğun olaraq daha da möhkəmlənib, bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Ulu Öndərin siyasi xəttini uğurla davam etdirən Prezident cənab İlham Əliyev hazırda ölkədə dini etiqad azadlığının və multimədəni harmoniyanın təminatçısı və himayədarıdır.

Qeyd olunub ki, milli-mənəvi dəyərlərimizin qorunmasına, tarixi-mədəni abidələrimizin bərpasına böyük önəm verən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bir sıra məscid və ziyarətgahların, xristian və yəhudi abidələrinin təmir və bərpasına xüsusi diqqət göstərir.

Azərbaycanın İsraildən sonra yəhudilərin ən sıx məskunlaşdığı ölkə olduğunu vurğulayan Komitə sədri ölkəmizdə 7 sinaqoqun, yəhudi məktəblərinin fəaliyyət göstərdiyini bildirib. O qeyd edib ki, dövlət tərəfindən dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə mütəmadi olaraq İslam və qeyri-islam dini icmalarına maliyyə vəsaiti ayrılır.

"Bney Brit" beynəlxalq təşkilatının fəaliyyəti barədə məlumat verən Qari Saltzmən bildirib ki, bir əsrdən çox tarixə malik təşkilatın əsas vəzifəsi dini müxtəlifliyi təbliğ etmək, müxtəlif dinlərin nümayəndələrinin tolerant mühitdə yaşaması üçün işlər görməkdir.

Qonaq Azərbaycanda yəhudilərin ibadəti və dini adət-ənənələrini qoruması üçün şərait yaradılmasından məmnun olduğunu bildirib.

Görüşdə ikitərəfli əməkdaşlıq, Azərbaycan və yəhudi xalqlarının qardaşlığını gücləndirə biləcək ortaq layihələr haqqında müzakirələr aparılıb.

# Dövlət Komitəsi dini icmaların layihələrini maliyyələşdirib

***İyunun 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) layihələri maliyyələşdirilmiş dini icma sədrlərinin iştirakı ilə tədbir keçirilib. Tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini, Aparat rəhbəri, şöbə müdirləri və dini icmaların rəhbərləri iştirak ediblər.***

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu dövlət-din siyasətinin bu gün yüksək səviyyədə davam etdirildiyini diqqətə çatdıran Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı müvafiq Sərəncamın önəmindən danışıb.

S.Salahlı dövlətin daim dindarların və dini icmaların yanında olduğunu, mütəmadi olaraq dini icmaların layihələrinin maliyyələşdirildiyini vurğulayıb. O, ölkəmizdəki sabitliyin və əmin-amanlığın qorunub saxlanılmasında din xadimlərinin fəaliyyəti ilə bağlı ümumi prinsipləri qeyd edərək, Ramazan ayında bu fəaliyyətin daha mütəşəkkil formada davam etdirilməsinin vacibliyini qeyd edib.



Eyni zamanda, S.Salahlı dini icma sədrlərinə rəhbərlik etdikləri icmaların milli-mənəvi dəyərlərimizin təbliği və radikalizmə qarşı mübarizə istiqamətində fəaliyyət göstərmələrini, ümummilli maraqlardan çıxış etmələrini tövsiyə edib.

Layihələri maliyyələşdirilən dini icmaların sədrləri çıxış edərək dini sahəyə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 216 dini icmanın layihələri maliyyələşdirilib ki, bunlardan 19-u qeyri-islam, 197-i isə İslam dini icmasıdır.

# "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri"



**Sabirabad**

İyunun 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Sabirabad Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.

Rayon Heydər Əliyev Mərkəzində baş tutan tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Sabirabad RİH-in başçısı Nazim İsmayılov, hüquq-mühafizə orqanlarının rəhbərləri, DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin müdiri Cavanşir Bəhrəmov, şöbənin əməkdaşları, QMİ-nin Sabirabad rayonu üzrə səlahiyyətli nümayəndəsi Ağakərim Sadıqov, dini icmaların sədrləri, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Sabirabad RİH-in başçısı Nazim İsmayılov dövlət-din münasibətlərinə toxunaraq bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin başlıca məqsədi Azərbaycanda dinlər arasında mövcud olan tolerantlıq mühitini qoruyub saxlamaqdır. O qeyd edib ki, hazırda ölkəmizdə dini sabitliyin hökm sürməsi həmin siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı seminar-müşavirədə geniş məruzə ilə çıxış edərək bildirib ki, dövlət-din münasibətlərinin başlıca məqsədlərindən biri ölkədə mövcud olan tolerantlığın qorunması, müxtəlif dini konfessiyalara mənsub dini icmaların öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirməsidir. Səyyad Salahlı, həmçinin dini radikalizmin mahiyyəti və onunla mübarizə yolları haqqında danışaraq Azərbaycan dövlətinin tarixən ölkəmizdə mövcud olan və keçmişdən bizə miras qalan mütərəqqi dini ənənələrin yaşadılması və inkişafı ilə əlaqədar gördüyü işlər haqqında məlumat verib.

Sonra çıxış edən Sabirabad rayon prokuroru Pərvin Quliyev din xadimlərinin, gənclərin və ziyalıların dini radikalizmlə mübarizədə, İslam həmrəyliyinin təbliğində fəal olmalarının vacibliyindən söz açıb.

**Saatlı**

Daha bir seminar-müşavirə iyunun 13-də DQİDK və Saatlı RİH-in birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Saatlı RİH-in başçısı Siraqəddin Cabbarov, hüquq-mühafizə orqanlarının rəhbərləri, DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin müdiri Cavanşir Bəhrəmov və şöbənin əməkdaşları, QMİ-nin bölgə qazısı, Saatlı şəhər "Cümə" məscidinin axundu Vadər Əliquliyev, dini icma sədrləri, din xadimləri, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Saatlı RİH-in başçısı Siraqəddin Cabbarov bu ilin cənab Prezident tərəfindən "İslam Həmrəyliyi İli" elan olunmasının, IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsinin müsəlman aləmində birliyə töhfə verməklə yanaşı, həm də dünyada sivilizasiyalar arasında həmrəyliyə müsbət təsir göstərəcəyinə ümidvar olduğunu qeyd edib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı öz çıxışında tarix boyu müxtəlif qüvvələrin müsəlman dünyasının birliyinə mane olmağa çalışdığını bildirib və qeyd edib ki, hər bir müsəlman təəssübkeşlikdən qaçmalı və müsəlman dünyasının vəhdətini qüvvətləndirmək üçün inamlı addımlar atmalıdır. O, bu



məqsədlə Prezident cənab İlham Əliyev tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının müasir dövrün çağırışlarını özündə ehtiva etdiyini və ölkəmizin tarixi missiyanı həyata keçirdiyini vurğulayıb. Komitə sədrinin birinci müavini İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri barədə dini icma sədrlərinə tövsiyələrini verib, onları ölkəmizdə İslam həmrəyliyinin təbliğində fəal olmağa çağırıb.

***

**Daşkəsən**

Analoji seminar-müşavirə iyunun 23-də DQİDK və Daşkəsən RİH-in birgə təşkilatçılığı ilə keçirilib.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Daşkəsən RİH-in başçısı Əhəd Abıyev, icra başçısının birinci müavini Cavanşir Qocayev, RİH başçısı



Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Namiq Süleymanov, DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyev, dini icmanın sədri, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Daşkəsən RİH-in başçısı Əhəd Abıyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün möhtərəm Prezident cənab İlham Əliyevin davam və inkişaf etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Ölkəmizdə ənənə halını almış tolerantlıq və multikultural mühit bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir. Əhəd Abıyev qeyd edib ki, ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan olunması həm İslam aləmi daxilində, həm də dünyada müxtəlif sivilizasiyalar arasında həmrəyliyə töhfə verəcək.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı öz çıxışında qeyd edib ki, Azərbaycan xalqı son bir əsrdir ki, ateizm və mövhumat arasında ən doğru yolu formalaşdırır. Bu yol dini cəhətdən dünyəvi maarifçiliyə keçidi və bu kontekstdə İslamın cəmiyyət həyatında yalnız müsbət rol oynamasını təşviq edir. Bu proses müstəqillik illərində dövlətin əsas prioritetlərindən birinə çevrilib. Prezident İlham Əliyev beynəlxalq miqyasdakı qlobal sülh və əməkdaşlıq hərəkatının əsas öncüllərindəndir və sivilizasiyalar, dinlər arasında faydalı əməkdaşlığın, qarşılıqlı etimadın yaradılması üçün mühüm fəaliyyət göstərir. Bu sahədəki məqsədyönlü, düşünülmüş siyasətin nəticəsidir ki, tolerantlığın Azərbaycan nümunəsi dünyanın qəbul etdiyi və örnək göstərdiyi modelə çevrilib. Səyyad Salahlı, eyni zamanda İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri barədə dini icma sədrlərinə öz tövsiyələrini verib, onları İslam həmrəyliyinin təbliğində fəal olmağa çağırıb.

***

Seminar-müşavirələrin sonunda mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş 7 dini icmaya şəhadətnamələr təqdim olunub.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Ümummilli Lider Heydər Əliyevin uğurlu dövlət-din siyasətinin nəticəsi kimi ölkəmizdə dini tolerantlıq mühitinin yaradıldığını söyləyən S.Salahlı dinə dövlət qayğısından, dini icmaların fəaliyyəti üçün yaradılan şəraitdən bəhs edib.

Dini icmaların Azərbaycan cəmiyyətində özünəməxsus yeri və rolunu xüsusi vurğulayan sədrin birinci müavini bildirib ki, dini maarifləndirmə tədbirlərinin təşkilində, dini radikalizmə qarşı mübarizədə dini icmalar da məsuliyyət daşıyır. S.Salahlı yeni qeydiyyatdan keçən dini icmaları dinimizin, milli-mənəvi dəyərlərimizin ictimaiyyətə düzgün çatdırılması işində aktiv olmağa çağırıb.

Sonda yeni qeydiyyatdan keçmiş dini icma sədrlərinə şəhadətnamələr təqdim edilib.

Qeyd edək ki, dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan sonra 767 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onların 739-u İslam, 28-i isə qeyri-islam (xristian – 17; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür.

# "RADİKALİZM VƏ EKSTREMİZMİN MAHİYYƏTİ, YARANMA SƏBƏBLƏRİ VƏ ONLARA QARŞI MÜBARİZƏNİN HÜQUQİ ƏSASLARI"

İyunun 20-də **Yevlax** şəhərində "Radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda seminar-müşavirə keçirilib.

Müşavirədə Yevlax, Bərdə, Ağdaş, Tərtər, Ucar, Mingəçevir şəhər və rayon prokurorlarının, Daxili İşlər və Ədliyyə Nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yerli strukturlarının rəhbərləri iştirak ediblər.

Müşavirədən əvvəl Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərinin işıqlandırıldığı "Fitnə" sənədli filmi nümayiş olunub.



Daha sonra tədbiri giriş sözü ilə açan Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov ölkəmizdə ictimai-siyasi sabitliyin və dünyaya örnək ola biləcək tolerantlıq mühitinin olduğunu vurğulayıb. Bildirib ki, tolerantlıq milli mənsubiyyətindən, dinindən asılı olmayaraq hər bir azərbaycanlının həyat tərzinə çevrilib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov da çıxış edərək dövlət-din münasibətlərinin milli təhlükəsizlik və milli maraqlar baxımından düzgün istiqamətləndirilməsi məqsədilə mövcud qanunvericilik bazasının təkmilləşdirilməsindən, hüquqi aktlara edilmiş zəruri əlavə və dəyişikliklərdən bəhs edib, o cümlədən Dövlət Komitəsinin həyata keçirdiyi genişmiqyaslı maarifləndirmə, qabaqlayıcı və profilaktik xarakterli tədbirlər barədə ətraflı məlumat verib. Komitə sədrinin müavini, həmçinin, Azərbaycan xalqının əsrlər boyu sahib olduğu milli-mənəvi dəyərlərin qorunub saxlanılması, bu sahədəki mövcud potensialın inkişaf etdirilməsi, vicdan azadlığının təmin olunması, ölkədə dövlət-din münasibətlərinin demokratik əsaslar, ümumbəşəri dəyərlər və dünyəvilik zəminində formalaşdırılması istiqamətində görülən tədbirləri xüsusi vurğulayıb.

Baş Prokurorluğun idarə rəisinin müavini Novruz Hacıyev və Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndəsi Oqtay Tağıyev, Yevlax şəhər Cümə məscidinin axundu Namiq Əliyev mövzu ilə bağlı çıxış ediblər.

Natiqlər Azərbaycanda dini radikalizmin yayılması metodlarından danışıb, onun qarşısını almaq üçün görülən zəruri tədbirlər barədə məlumat verib, həmçinin bu istiqamətdə mövcud qanunvericiliyin tələblərini tədbir iştirakçılarının nəzərinə çatdırıblar.

***

Daha bir seminar-müşavirə iyunun 29-da **Göyçayda** baş tutub.

Göyçay şəhər Heydər Əliyev Mərkəzində keçirilən müşavirədə Baş Prokurorluq, Daxili İşlər və Ədliyyə nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti və DQİDK-nın Göyçay, Şamaxı, İsmayıllı, Qəbələ və Ağsu rayonlarının yerli strukturlarının rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar, bölgənin din xadimləri, dini icma sədrləri və gənclər iştirak ediblər.

Müşavirədən əvvəl "Fitnə" sənədli filmi nümayiş olunub.

Filmin nümayişindən sonra tədbiri giriş sözü ilə açan Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin davam və inkişaf etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Ölkəmizdə ənənə halını almış tolerant və multikultural mühit bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir.

DQİDK sədrinin müavini Səyavuş Heydərov bildirib ki, ölkəmizdə vicdan azadlığı yüksək səviyyədə təmin edilir və bütün dinlərə bərabərhüquqlu münasibət göstərilir. Ancaq bəzi hallarda bu münasibətdən sui-istifadə edilərək tarixən formalaşmış milli-mənəvi dəyərlər sisteminə zidd olan ünsürlər vasitəsilə ölkəmizdə dini zəmində ekstremizm və separatizmin yayılmasına çalışılır. Bunun qarşısının alınması məqsədilə Dövlət Komitəsi müvafiq dövlət orqanları ilə birlikdə mövcud qanunvericilik çərçivəsində genişmiqyaslı maarifləndirmə, qabaqlayıcı və profilaktik xarakterli tədbirlər keçirməkdə davam edir.

Daha sonra çıxış edən Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Oqtay Tağıyev təmsil etdiyi qurumun dini radikalizmlə mübarizə istiqamətində həyata keçirdiyi profilaktik və inzibati tədbirlərdən söz açıb. Baş Prokurorluğun idarə rəisinin müavini Novruz Hacıyev də öz çıxışında dini radikalizm və onun fəsadlarından danışıb, eləcə də hüquqi müstəvidə aparılan mübarizə metodologiyası haqqında geniş məlumat verib. Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Əli Məmmədov dövlət rəhbərliyinə dindarlara göstərdiyi qayğı üçün təşəkkürünü bildirib.

Seminar-müşavirələr müzakirələrlə davam etdirilib.

# "Azəriqaz" İstehsalat Birliyində "İslam Həmrəyliyi İli" çərçivəsində tədbir keçirilib



İyunun 2-də "İslam Həmrəyliyi İli" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və SOCAR-ın birgə təşkilatçılığı ilə tədbir keçirilib.

"Azəriqaz" İstehsalat Birliyində baş tutan tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, "Azəriqaz" İB-nin Baş direktoru Əkbər Hacıyev, direktorun Ümumi məsələlər üzrə müavini Şəfiq Nemətov və birliyin əməkdaşları iştirak ediblər.

Tədbir Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş, dini ekstremizmin və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filminin nümayişi ilə başlayıb.

Filmin nümayişindən sonra çıxış edən Şəfiq Nemətov ölkəmizdə milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğını vurğulayaraq dini tolerantlığın qorunmasının əhəmiyyətindən danışıb.

DQİDK sədrinin müavini Səyavuş Heydərov isə öz çıxışında radikalizm və ekstremizmin sırf dini, dini-etnik və dini-siyasi formalarda təzahür etdiyini vurğulayıb. Dini zəmində baş verən münaqişələrin mahiyyəti, yaranma səbəbləri barədə danışan S.Heydərov onun bəzi müsəlman ölkələrinin inkişafına ciddi maneə yaratdığını bildirib. Dini radikalizmə qarşı mübarizədə maarifləndirmə tədbirlərinin əhəmiyyətinə toxunan sədr müavini bu sahədə Komitə tərəfindən aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi, koordinasiya işinin təkmilləşdirilməsi, xüsusilə radikalizmə qarşı mübarizənin effektivliyinin artırılması üçün təsdiq edilmiş Tədbirlər Planı əsasında zəruri işlər həyata keçirildiyini qeyd edib.

# Pedaqoji Kollecdə dini radikalizmlə mübarizə mövzusu müzakirə olunub



İyunun 8-də Azərbaycan Dövlət Pedaqoji Kollecində "Dini radikalizm və ekstremizmin yaranma səbəbləri, təzahür formaları və ona qarşı mübarizənin hüquqi əsasları" mövzusunda maarifləndirici xarakterli seminar-müşavirə keçirilib. Seminar-müşavirədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov, Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru Qulu Novruzov, kollecin müəllim-tələbə heyəti iştirak edib.

Tədbirdə öncə DQİDK-nın sifarişi ilə hazırlanan, dini radikalizm və bu cərəyanın qurbanlarından bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.

Filmin nümayişindən sonra çıxış edən kollecin direktoru Q.Novruzov bu cür tədbirlərin keçirilməsinin, xüsusilə radikalizmə qarşı mübarizədən bəhs edən "Fitnə" filminin maarifləndirmə sahəsində əhəmiyyətini vurğulayıb və Dövlət Komitəsinin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirib. Kollec direktoru tələbələrə radikal dini təsirlərə düşməmək və zərərli dini cərəyanlara qoşulmamaq üçün daha diqqətli olmağı tövsiyə edib.

Dövlət Komitəsi sədrinin müavini S.Heydərov çıxışında dini radikalizmin yaranma səbəbləri və onun fəsadlarından bəhs edib. Sədr müavini Yaxın Şərqdə gedən proseslərə nəzər salaraq, dünyada aparıcı güclərin geosiyasi maraqlarını təmin etməsi üçün din amilindən istifadə etdiklərini də diqqətə çatdırıb. Natiq vurğulayıb ki, bəzi qüvvələr sülh dini olan İslamı siyasiləşdirərək, qarşıdurma yaratmaqla onu gözdən salmağa yönələn siyasət həyata keçirirlər. S.Heydərovun sözlərinə görə, bəzi dairələr tərəfindən radikal yönümlü dini cərəyanların Azərbaycana ixrac olunmasına da cəhdlər edilir. Lakin ölkəmizin müvafiq qurumları tərəfindən bu cür cəhdlərin qarşısı qətiyyətlə alınır. DQİDK-nın sədr müavini bu baxımdan gələcəyin müəllimləri olan tələbələrin ayıq-sayıqlığının artırılmasının və müəyyən bilgilərə yiyələnmələrinin, eyni zamanda onların radikalizmə qarşı mübarizədə fəal olmalarının vacibliyini diqqətə çatdırıb. S.Heydərov onu da vurğulayıb ki, gənclər yad ideyalardan qorunmaları üçün müvafiq icazəsi olmayan ədəbiyyatlardan və saxta dini təqvimlərdən istifadə etməməlidirlər. S.Heydərov, eyni zamanda çıxışı zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlikdən və dövlət-din münasibətlərindən danışıb.



# "İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ"

***İyunun 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Zərdab Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Zərdab şəhər Heydər Əliyev Mərkəzində "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib.***



"İslam Həmrəyliyi İli" çərçivəsində təşkil olunan tədbirdə Zərdab rayonu üzrə məktəb direktorlarının təlim-tərbiyə işləri üzrə müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, Yeni Azərbaycan Partiyasının Zərdab rayon Təşkilatından olan gənclər, eləcə də DQİDK, RİH və Zərdab Rayon Gənclər və İdman İdarəsinin əməkdaşları iştirak ediblər.

Konfransda çıxış edən Zərdab RİH başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ramo Hacıyev ölkəmizdə dinə dövlət qayğısından bəhs edib. R.Hacıyev Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyini, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını diqqətə çatdırıb. O, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və bunun təzahürü olaraq 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunduğunu bildirib.

Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov qeyd edib ki, din pərdəsi altında gizlənmiş məkirli qüvvələrin məqsədi, real təhlükəsi barədə cəmiyyət mütəmadi məlumatlandırılmalı, hədəf düzgün müəyyənləşdirilməlidir. Təxribatçı qüvvələrin, qanunu pozan radikal dini qrupların dövlətçiliyimizə və milli maraqlarımıza zidd fəaliyyətini zərərsizləşdirmək qarşımızda duran mühüm vəzifələrdən biri, bəlkə də, birincisidir. Bu baxımdan dövlətçiliyimizi və milli-mənəvi irsimizi qorumaq, eləcə də təbliğ etmək sözügedən istiqamətdə iş aparmaq dövlət qurumları ilə yanaşı, həm də dini icmaların, ictimai təşkilatların, ümumiyyətlə, hər bir vətəndaşın başlıca vəzifəsi olmalıdır.

G.İsmayılov qeyd edib ki, müsəlman aləminin inkişafına mane olan amillərdən və ciddi problemlərimizdən biri dinin siyasiləşdirilməsi cəhdidir. Belə amillərə qarşı mübarizə aparmaq və bunun üçün də həmrəylik nümayiş etdirmək lazımdır.

"Tarixən müsəlmanlar başqa din nümayəndələrinə tolerant yanaşıb. İslamdan gələn bu cür dözümlülük xalqımızın etnik xüsusiyyətlərindən qaynaqlanan tolerantlıqla çuğlaşaraq daha rəngarəng və mükəmməl bir forma alıb və zəngin mədəni sərvətə çevrilib" - deyə, Gündüz İsmayılov vurğulayıb. O, bildirib ki, Bu ilin "İslam Həmrəyliyi İli" elan edilməsi Azərbaycanın müsəlman dünyasında nümunəvi ölkə olduğunu bir daha sübut edir.

***

***Daha bir konfrans iyunun 19-da Oğuzda keçirilib.***

***Konfransda DQİDK-nın bölgə şöbəsinin əməkdaşları, bələdiyyə sədrləri, məktəb direktorları, RİH başçısının kənd və qəsəbələr üzrə nümayəndələri, Yeni Azərbaycan Partiyasının Oğuz rayon Təşkilatının aktiv üzvləri, eləcə də gənclər iştirak ediblər.***

Oğuz RİH başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Yusif Naxçıvanski konfransı giriş sözü ilə açaraq rayondakı sabit dini durum barədə məlumat verib. Eyni zamanda ölkəmizdə dini tolerantlıq, multikulturalizm ənənələrinin təbliği



sahəsində görülən işlərdən, müsəlman dünyasında həmrəyliyin təmin olunmasının əhəmiyyətindən, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqinin zəruriliyindən danışıb.

DQİDK sədrinin müavini Gündüz İsmayılov isə öz çıxışında bildirib ki, bu gün Prezidentimiz cənab İlham Əliyevin Ulu Öndərin zəngin siyasi irsinə söykənən ardıcıl, məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmiz digər sahələrdə olduğu kimi dinə, vicdan azadlığına, tolerant və multikultural dəyərlərə münasibətdə nümunəvi dövlətə çevrilib. "Ancaq təəssüf ki, Azərbaycanın tərəqqisini qəbul edə bilməyən, milli dövlətçiliyimizə qarşı çıxan, milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmayan, dinlər və məzhəblər arasında qarşıdurma yaratmaq istəyən, din pərdəsi altında gizlənən radikal qruplar da mövcuddur" - deyə, Gündüz İsmayılov vurğulayıb. Sədr müavini dindən siyasi məqsədləri üçün istifadəyə çalışan, insanları radikallığa çağıran, xalqımızın yüzillər boyu formalaşmış dözümlülük ənənələrinə, milli-mənəvi dəyərlərinə xələl gətirməyə cəhd göstərən qüvvələrə qarşı mübarizədə hər kəsin fəal olmasının zəruriliyini qeyd edib.

Hər iki konfrans iştirakçıları maraqlandıran sualların cavablandırılması və müzakirələrlə yekunlaşıb.

# "DİNİ RADİKALİZMLƏ MÜBARİZƏNİN BAŞLICA YOLU: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ"



**Füzulidə**

İyunun 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Füzuli Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizənin başlıca yolu: nəzəriyyə və təcrübə" mövzusunda tədbir keçirilib.

Tədbirdə Füzuli RİH-in başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Qabil Əliyev, DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfov, Dövlət Komitəsinin əməkdaşları Vüqar İmamquliyev, Vüqar Hümbətov, Mehdixan Zeynalov, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi Nəriman Nəsirov və Füzuli RİH-in əməkdaşları, bələdiyyə, hüquq-mühafizə orqanları, təhsil və səhiyyə müəssisələrinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Qabil Əliyev rayonda "İslam Həmrəyliyi İli" çərçivəsində görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Ə.Zülfüqarov radikalizmi yaradan səbəblərdən və bu kimi halların qarşısının alınması metodlarından danışıb. O, Dövlət Komitəsinin radikalizmlə mübarizə tədbirləri çərçivəsində dini maarifləndirmənin xüsusən gənclər arasında aparılmasının önəminə diqqət çəkib.

Dövlət Komitəsinin əməkdaşı Vüqar Hümbətov, QMİ-nin səlahiyyətli nümayəndəsi Nəriman Nəsirov da öz çıxışlarında dini radikalizmin fəsadları barədə danışıblar.

**Ağcabədidə**

Analoji tədbir iyunun 20-də DQİDK və Ağcabədi RİH-in birgə təşkilatçılığı ilə rayonun Hindarx qəsəbəsi 2 saylı tam orta məktəbində keçirilib.

Tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfov, Ağcabədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Təyyar Hacıyev, Dövlət Komitəsinin əməkdaşları Vüqar İmamquliyev, Vüqar Hümbətov, eləcə də müəllimlər, yuxarı sinif şagirdləri və İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Təyyar Hacıyev rayonda "İslam Həmrəyliyi İli" çərçivəsində görülmüş işlər barədə məlumat verib.

Daha sonra çıxış edən DQİDK-nın şöbə müdiri Əliheydər Zülfüqarov ölkəmizdə radikalizmə qarşı ciddi mübarizənin aparıldığını bildirib. Natiq qanunvericilikdə dini ekstremizmə qarşı mübarizə ilə bağlı bir sıra dəyişikliklər edildiyini də diqqətə çatdırıb. Ə. Zülfüqarovun sözlərinə görə, İslam dini haqqında bilgiləri zəif olan insanların radikal cərəyanlara, qruplara cəlb edilməsi daha asan olur. Bu baxımdan dini radikalizmlə mübarizədə ilk növbədə maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir.

Tədbirdə çıxış edən digər natiqlər də mövzunun əhəmiyyətindən danışıblar.

**Bərdədə**

Daha bir tədbir iyunun 21-də DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə RİH-in birgə təşkilatçılığı ilə Bərdə rayon Qarağacı kənd tam orta məktəbində baş tutub.

Tədbirdə DQİDK-nın şöbə müdiri Ə.Zülfüqarov, Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev,



şöbənin əməkdaşları, Bərdə RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini- dini qurumlarla işin təşkilatçısı Eldəniz Səfərov, Bərdə rayon Gənclər və İdman İdarəsinin rəisi Anar Şahbazov, ictimaiyyət nümayəndələri, müəllim və şagirdlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Eldəniz Səfərov rayondakı dini durum barədə məlumat verib.

Əliheydər Zülfüqarov isə öz çıxışında tolerant, multikultural dəyərlərin və İslam həmrəyliyi ideyalarının gənclərə aşılanmasının əhəmiyyətini vurğulayıb. Natiq radikal düşüncələrin cəmiyyətdə yayılmasına qarşı mübarizənin vacibliyini də qeyd edib. Ə.Zülfiqarov həmçinin, dini radikalizmi yaradan səbəblər və radikalizmə qarşı mübarizə vasitələri barədə ətraflı məlumat verib.

Daha sonra çıxış edən DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdə yüksək etimada malik dövlətlər sırasında yer almasından bəhs edib.

Tədbirdə çıxış edən digər natiqlər də malik olduğumuz milli-mənəvi dəyərlərimizin təbliğatını genişləndirməyin radikalizmə qarşı mübarizəyə daha çox töhfə verəcəyini bildiriblər.

Tədbirlərin sonunda iştirakçıların mövzuya dair sualları cavablandırılıb.

# Bakıda və bölgələrdə "İslam Həmrəyliyi İli" çərçivəsində tədbirlər keçirilib

*Azərbaycanın tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verdiyi nəzərə alınaraq Prezident İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub və Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasına dair Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında İslamdaxili həmrəylik, İslam və digər konfessiyalar arasında həmrəylik istiqamətləri üzrə ölkə daxilində və xaricdə keçirilməsi nəzərdə tutulan tədbirlər öz əksini tapıb. Qeyd edilənlərə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi digər qurumlarla birgə "İslam Həmrəyliyi İli" çərçivəsində iyun ayı ərzində bir sıra tədbirlər keçirib. Bu qəbildən olan tədbirlər:*



*6 iyun* – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Nərimanov Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Bakı şəhəri Nərimanov rayonu S.C.Pişəvəri adına respublika humanitar fənlər gimnaziyasında "Milli-mənəvi dəyərlər və İslam həmrəyliyi" mövzusunda;

*9 iyun* – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Xaçmaz rayonu "Qobuqırağı" kənd məscidində "Azərbaycanda İslam həmrəyliyinin tarixi izləri" mövzusunda;

*16 iyun* – DQİDK və Ədliyyə Nazirliyinin



Penitensiar Xidmətinin birgə təşkilatçılığı ilə 16 saylı cəzaçəkmə müəssisəsində "İslam həmrəyliyi zamanın çağırışıdır" mövzusunda;

*21 iyun* – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin və "Jurnalist Araşdırmalar Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Masallı şəhər Gənclər Mərkəzində "İslam həmrəyliyinin təbliğində media və dini icmaların birgə əməkdaşlığına dəstək" mövzusunda baş tutub.

Tədbirlərdə Dövlət Komitəsinin, şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də digər dövlət qurumlarının əməkdaşları, dini icma sədrləri, din xadimləri, rayonun təhsil və mədəniyyət işçiləri, gənclər iştirak ediblər. Çıxışlarda qeyd olunub ki, dövlət başçısı İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" və onun məntiqi davamı kimi bu ili "İslam Həmrəyliyi İli" elan etməsi bütün dünyaya "bir-birimizə qarşı dözümlü olaq, hörmətlə yanaşaq, həmrəy olmağı, dinlər və məzhəblər arasında dialoq qurmağı bacaraq" çağırışıdır. Bu, humanist və sülhsevər bir təşəbbüs olmaqla ölkəmizin İslam birliyinə olan həssas münasibətinin göstəricisidir.

Çıxışlarında dini radikalizmin mahiyyəti, onun milli-mənəvi və dini dəyərlərimizə qarşı olan zərərli təsirləri barədə də məlumat verən məruzəçilər dini maarifləndirmə sahəsində görülən tədbirlərin və bu istiqamətdə mütəmadi görüşlərin əhəmiyyətini vurğulayıb, ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının regional və beynəlxalq müstəvidə sabitliyin qorunmasındakı önəmindən danışıb, gənclərə radikal dini cərəyanların təsirinə düşməmək üçün müvafiq tövsiyələrini veriblər.

Keçirilən tədbirlərdə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Fitnə" sənədli filmi nümayiş etdirilib və tədbir iştirakçılarını maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.



# Bölgə xəbərlərimiz

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlər zamanı ölkəmizdə multikultural və tolerant mühit, dini radikalizm və ona qarşı mübarizənin əhəmiyyəti haqqında geniş məruzələr söylənilir, dövlət-din münasibətləri barəsində məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə işlərinə cəlb olunması məqsədi ilə faydalı mövzularda çıxışlar olur. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən konfranslar, seminar-müşavirələr, treninqlər DQİDK-nın təşkilatçılığı ilə, o cümlədən Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində həyata keçirilən tədbirlər:*



***1 iyun*** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar Rayon İcra Hakimiyyəti (RİH) və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Ucar şəhər 4 saylı tam orta məktəbdə "Sağlam gələcək naminə zərərli vərdişlərə qarşı birgə mübarizənin vacibliyi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və rayonun Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun S.Vurğun adına 1 saylı Qullar kənd tam orta məktəbində "Gənclərin radikal dini fikirlərdən və zərərli vərdişlərdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda;

***2 iyun*** – DQİDK və Masallı Rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə rayon Sakit Tağıyev adına Digah tam orta məktəbində "İnsan hüquqları aylığı" çərçivəsində "Çağdaş Azərbaycanda gənc nəslin təhsil hüquqları və multikulturalizm dəyərlərinin təbliği" mövzusunda; DQİDK və Xətai rayonu 147 nömrəli texniki-humanitar liseyin təşkilatçılığı ilə liseydə "İnsan Hüquqları Günü" münasibətilə; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Tofiq İsmayılov adına şəhər 1 saylı tam orta məktəbində "Zərərli vərdişlərin və zərərli dini cərəyanların fərd və cəmiyyət həyatına mənfi təsirləri" mövzusunda;

***5 iyun*** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və Saatlı rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "İnsan Hüquqları qorunması aylığı" çərçivəsində "Həmrəylik və insan hüquqları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran ŞİH, Şəhər Təhsil Şöbəsi və İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzinin birgə təşki-





latçılığı ilə Xanbulan kənd tam orta məktəbində "İnsan hüquqları aylığı" çərçivəsində; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan Hüquqları üzrə Müvəkkilin Quba Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində;

***6 iyun*** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Talalar kənd 2 saylı tam orta məktəbdə "İnsan hüquqlarının qorunması" aylığı çərçivəsində "Azərbaycanda dini etiqad azadlığı və birgəyaşayış ənənəsi" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Gənclər və İdman İdarəsi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Masallı Gənclər Mərkəzində "Cəmiyyətimizin sağlamlığı naminə narkomaniyaya qarşı birgə mübarizənin vacibliyi" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Nizami RİH-in birgə təşkilatçılığı ilə "İnsan hüquqlarının qorunması" aylığı çərçivəsində Bakı şəhəri Nizami rayonu 250 saylı tam orta məktəbdə "Dini etiqad azadlığı – multikulturalizm və tolerantlıq" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Tərtər RİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə Ramazan ayı münasibətilə Tərtər rayon "Cümə" məscidində; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə Qobustan rayon Cəmcəmli kənd tam orta məktəbində "İnsan hüquqları aylığı" çərçivəsində; DQİDK-nın və Gədəbəy RİH-in birgə təşkilatçılığı ilə "Ənənəvi İslam modelinin qorunub saxlanılmasın-



da maarifləndirmənin rolu" mövzusunda;

***8 iyun*** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Qazma kənd 1 saylı tam orta məktəbində "Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolu" mövzusunda;

***9 iyun*** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun 2 saylı tam orta məktəbində "İnsan hüquqları aylığı" çərçivəsində;

***13 iyun*** – DQİDK və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə əmri ilə təsdiq edilmiş "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Yevlax rayon İmadəddin Nəsimi adına 3 nömrəli tam orta məktəbdə "İslam həmrəyliyi: gənclik və radikalizmə qarşı mübarizə" mövzusunda;

***14 iyun*** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə rayon regional "Asan Xidmət" mərkəzinin birgə təşkilatçılığı ilə "Gənclərin radikal təsirlərdən qorunmasında İslam həmrəyliyi ideyasının rolu" mövzusunda;

***16 iyun*** – DQİDK və Təhsil Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində Sumqayıt şəhəri Corat qəsəbəsi 7 saylı tam orta məktəbdə "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda;

***22 iyun*** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Rayon İcra Hakimiyyətində "İslam həmrəyliyi və gənclərin radikal təsirlərdən qorunması" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və QMİ-nin birgə təşkilatçılığı ilə "Ramazan həmrəylik və birlik ayıdır" mövzusunda;

***23 iyun*** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının Zərdab rayon təşkilatının inzibati binasında "Zərərli vərdişlərə qarşı mübarizə gələcəyimizin sağlam təminatıdır" mövzusunda baş tutub.

Tədbirlərdə çıxış edən natiqlər müasir dövrdə bəşəriyyətin bəlasına çevrilmiş dini radikalizm, ekstremizm



və onun fəsadlarından, radikalizmə qarşı mübarizədə maarifləndirici, profilaktik tədbirlərin görülməsinin vacibliyindən, ölkəmizdə mövcud olan zərərli dini cərəyanların fəaliyyətindən və onlara qarşı mübarizə üsullarından bəhs ediblər. Bildirilib ki, dini radikalizm müasir dövrün ən böyük bəlalarındandır və dini biliyi olmayan, onun əsl mahiyyətini dərk etməyən gənclər bəzən bilmədən bu yola düşürlər. Dünyanın dini radikalizmin törətdiyi acı nəticələrin qarşısında aciz qaldığı bir zamanda Azərbaycan dövləti düzgün ideoloji iş apararaq ölkəmizi bu cür qarışıqlıqlardan uzaqda tuta bilib. Gənc nəsil də var qüvvəsini elmə və sağlam inkişafa həsr etməklə öz müstəqil dövlətlərini, milli-mənəvi dəyərlərini qorumağa çalışmalıdır.

Həmçinin çıxışlarda bu ilin "İslam Həmrəyliyi İli" elan olunduğu qeyd edilərək mənəvi dəyərlər sistemimizin ayrılmaz parçası olan İslam dininin humanist və sülhsevər din olduğu diqqətə çatdırılıb və bu mövzuda maarifləndirmə tədbirlərinin təşkilinin xüsusi əhəmiyyətli olduğu vurğulanıb. Məruzəçilər milli-mənəvi dəyərlərin həmrəyliyimizdə xüsusi yer tutduğundan və gənclərin milli ruhda tərbiyə almasının zəruriliyindən danışıblar.

Tədbirlərdə, eyni zamanda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və DQİDK-nın sifarişi ilə çəkilən, dini radikalizmə qarşı mübarizədən bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.



# Bölgələrdə maarifləndirmə tədbirləri uğurla davam etdirilir

*Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2017-ci ilin iyun ayı ərzində də müxtəlif bölgələrdə tədbirlər keçirilib. Cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*



***5 iyun*** – Lerik rayonu Lüləkəran kənd məscidi dini icmasının "İslam həmrəyliyinin dini radikalizmə qarşı mübarizədə əhəmiyyəti" layihəsi çərçivəsində; Zaqatala rayonu Muxax kənd məscidi dini icmasının "Keçmişdən günümüzə Azərbaycanda İslam həmrəyliyi ənənələri" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimizdə İslam vəhdəti" mövzusunda;

***6 iyun*** – Şabran rayon Vələsli kənd məscidi dini icmasının "Azərbaycanda ənənəvi İslam: həmrəyliyə gedən yol" layihəsi çərçivəsində Şabran şəhəri 3 saylı tam orta məktəbində "İslam həmrəyliyinin Azərbaycan modeli" mövzusunda; Şamaxı rayonu Məlikçobanlı kənd "Cümə" məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Pirallahı rayonu "Pirallahı" məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" layihəsi çərçivəsində;

***7 iyun*** – Şərəfə kənd məscidi dini icmasının "İslam həmrəyliyi və vəhdət" layihəsi çərçivəsində Masallı rayonu Qəhrəman İsmayılov adına Şərəfə kənd tam orta məktəbində "İslamda vətən sevgisi" mövzusunda;



***9 iyun*** – Masallı rayonu Ərkivan qəsəbə "Həzrət Əli" məscidi dini icmasının "Radikalizm və ekstremizmə qarşı mübarizədə İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində Ərkivan qəsəbə Zahir Nəcəfov adına 2 saylı tam orta məktəbdə "İslam həmrəyliyinin Azərbaycan modeli" mövzusunda; Lerik rayonu Lüləkəran kənd məscidi dini icmasının "İslam həmrəyliyinin dini radikalizmə qarşı mübarizədə əhəmiyyəti" layihəsi çərçivəsində;

***10 iyun*** – Abşeron rayon Digah qəsəbə məscidi dini icmasının "Ailə milli-mənəvi dəyərlərin daşıyıcısıdır" layihəsi çərçivəsində "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda;

***11 iyun*** – Lerik rayonu Lüləkəran kənd məscidi dini icmasının "İslam həmrəyliyinin dini radikalizmə qarşı mübarizədə əhəmiyyəti" layihəsi çərçivəsində;

***12 iyun*** – Sabirabad rayon Bulduq kənd məscidi dini icmasının "Milli dəyərlərimizin formalaşmasında İslam dininin əhəmiyyəti" layihəsi çərçivəsində Sabirabad rayon İ.Mirzəyev adına Bulduq kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərimiz gənclərin vətənpərvərlik tərbiyəsinin mühüm mənbəyi kimi" mövzusunda;

***13 iyun*** – İmişli rayon Xoşçobanlı kənd məscidi dini icmasının "İslam həmrəylik, bərabərlik dinidir" layihəsi çərçivəsində İmişli rayon Vüqar Əhmədov adına Xoşçobanlı kənd tam orta məktəbində "İslamın birlik və bərabərliyə verdiyi əhəmiyyət" mövzusunda; Şamaxı rayonu Məlikçobanlı kənd "Cümə" məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "İslamda vətən sevgisi" mövzusunda; Masallı rayonu Ərkivan qəsəbə "Həzrət Əli" məscidi dini icmasının "Radikalizm və ekstremizmə qarşı mübarizədə İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində Əlvan Bağırov adına Ərkivan qəsəbə 4 saylı tam orta məktəbində "Radikalizm və ekstremizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

***16 iyun*** – İmişli şəhər məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və müasirlik" layihəsi çərçivəsində "Zərərli vərdişlərə qarşı mübarizədə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; İmişli rayon Cəfərli kənd "İmam Hüseyn" məscidi dini icmasının "İslamda sülh və həmrəylik çağırışları" layihəsi çərçivəsində "İslam həmrəyliyinin dini radikalizmlə mübarizədəki rolu" mövzusunda;

***18 iyun*** – Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "İslamda həmrəylik" mövzusunda;



***19 iyun*** – Masallı rayonu Köhnə Alvadı kənd məscidi dini icmasının "İslam həmrəyliyi radikalizm və ekstremizmə qarşıdır" layihəsi çərçivəsində "Ramazan ayı və vəhdət" mövzusunda; Xətai rayonu "Əhmədli qəsəbə məscidi" dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində; Qobustan rayonu Ərəbşalbaş kəndi "Hacı Gülməli" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində;

***20 iyun*** – İmişli rayon Şahverdili kənd "Əhli-beyt" məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və müasirlik" layihəsi çərçivəsində İmişli rayonu Şahverdili kənd şəhid Fikrət Cəbrayılov adına tam orta məktəbdə "Milli-mənəvi dəyərlərin inkişafında təhsilin rolu" mövzusunda; Zaqatala rayonu Muxax kənd məscidi dini icmasının "Keçmişdən günümüzə Azərbaycanda İslam həmrəyliyi ənənələri" layihəsi çərçivəsində "İslam həmrəyliyi və onun dini radikalizmlə mübarizədəki rolu" mövzusunda; Sabunçu rayonu Sabunçu qəsəbə məscidi dini icmasının "İslam həmrəyliyi dünyanı sülhə aparan yol" layihəsi çərçivəsində; Şabran rayon Vələsli kənd məscidi dini icmasının "Azərbaycanda ənənəvi İslam: həmrəyliyə gedən yol" layihəsi çərçivəsində "Xıdır Zində" məscidində "Tolerantlığın Azərbaycan modeli" mövzusunda; Lənkəran rayonu Osakücə kənd məscidi dini icmasının "İslam həmrəyliyi müasir dövrün çağırışıdır" layihəsi çərçivəsində;

***21 iyun*** – Quba şəhəri "Ərdəbil" məscidi dini icmasının "Ənənəvi İslam və həmrəylik" layihəsi çərçivəsində; Masallı rayonu Köçəkli kənd məscidi dini icmasının "Dinimiz və mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində "Ramazan ayı və onun fəzilətləri" mövzusunda;

***22 iyun*** – Şamaxı rayonu Məlikçobanlı kənd "Cümə" məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "Məzhəblərarası vəhdət" mövzusunda; Qaradağ rayonu "Səngəçal qəsəbə məscidi" dini icmasının "İslam - barışıq və həmrəylik dinidir" layihəsi çərçivəsində; Masallı rayonu Ərkivan qəsəbə "Həzrət Əli" məscidi dini icmasının "Radikalizm və ekstremizmə qarşı mübarizədə İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində "İslami dəyərlər radikalizmə qarşı" mövzusunda; Ağdaş şəhər "Hacı İsmayıl" məscidi dini icmasının "İslam həmrəyliyi və İslami dəyərlərin təbliği" layihəsi çərçivəsində "İslam həmrəyliyi və onun mahiyyəti" mövzusunda; Xaçmaz rayonu Yalama kənd məscidi dini icmasının "Birliyimiz həmrəyliyimizdədir" layihəsi çərçivəsində;



***23 iyun*** – Masallı rayonu Şərəfə kənd məscidi dini icmasının "İslam həmrəyliyi və vəhdət" layihəsi çərçivəsində "İslamda tolerantlıq ənənələri və bərabərlik prinsipləri" mövzusunda;

***24 iyun*** – Sabirabad rayon Həşimxanlı kənd məscidi dini icmasının "Multikultural cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində "Multikultural cəmiyyətdə birgəyaşayışı şərtləndirən əsas amillər" mövzusunda;

***29 iyun*** – Lənkəran rayonu Balıqçılar qəsəbə "Xanım Zəhra" məscidi dini icmasının "İslam həmrəyliyi sülh və inkişafa təminatdır" layihəsi çərçivəsində;

***30 iyun*** – Lənkəran rayonu Bəlləbur kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülh və birliyə töhfə kimi" layihəsi çərçivəsində; Yardımlı rayonu Avaş kəndi "İmam Museyi Kazım" məscidi dini icmasının "Radikal meyillərə qarşı mübarizədə dindarların rolu" layihəsi çərçivəsində "İslam sülh və mədəniyyət dinidir" mövzusunda baş tutub.

Dindarların, dini icma sədrlərinin, ziyalıların, şagird və müəllimlərin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) mərkəzi aparatının və bölgə şöbələrinin, şəhər və rayon icra hakimiyyəti orqanlarının əməkdaşları, ilahiyyatçılar və digərləri məruzələrlə çıxış ediblər. Ölkəmizin zəngin milli-mənəvi dəyərlərindən, bu dəyərlərin qorunmasının və gənclər arasında təbliğinin əhəmiyyətindən danışan məruzəçilər tarixən ölkəmizdə məzhəblər arasında həmrəylik, dostluq, qardaşlıq münasibətlərinin hökm sürdüyünü vurğulayıblar. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi İslam aləmində həmrəyliyə, birliyə töhfə verəcəkdir. Həmçinin məruzəçilər dini radikalizm, onun cəmiyyət və bəşəriyyət üçün fəsadları haqqında və DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirləri barədə məlumat veriblər və İslam dininin elmə, təhsilə verdiyi önəmin əhəmiyyətindən danışıblar.

Tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN YARADILMASINDAN 16 İL ÖTÜR

Azərbaycanda cəmiyyət həyatının müxtəlif sahələrindəki münasibətlərin ən yüksək səviyyədə tənzimlənməsi üçün mükəmməl idarəçilik sisteminin qurulması Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın XX əsrin əvvəllərində yenidən müstəqilliyini bərpa etməsindən sonra xalqımızın milli-mənəvi dəyərlərinə yenidən qayıdışı, unudulmaqda olan milli-mənəvi dəyərlərin yenidən dirçəldilməsi də məhz Ulu Öndərin yorulmaz fəaliyyətinin nəticəsi olmuşdur. Hələ sovetlər dönəmində milli-mənəvi, o cümlədən dini dəyərlərimizin qorunmasını müxtəlif mexanizmlərlə gerçəkləşdirən Ümummilli Lider Heydər Əliyevin müstəqillik dönəmində bu istiqamətdə yürütdüyü siyasət daha genişspektrli xarakterə malik olmuşdur. Ulu Öndər milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması ilə yanaşı, bu dəyərlərin ayrılmaz tərkib hissəsi olan tolerantlıq və humanizm ənənələrinin davam etdirilməsinə xüsusi diqqət yetirmişdir.

Məhz müstəqil Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini etiqad azadlığının təmin olunması məqsədi ilə Ümummilli Lider Heydər Əliyevin 21 iyun 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Yarandığı dövrdən bəri Komitənin qarşısında böyük vəzifələr qoyulmuşdur. Dini etiqad azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini qurumların Azərbaycan Respublikasının qanunveriliyi ilə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatının aparılması, dini qurumlara lazımi yardımın göstərilməsi, müxtəlif dini etiqadların dini qurumları arasında qarşılıqlı



anlaşmanın və bir-birinə dözüm və hörmətli münasibətin möhkəmlənməsinə kömək edilməsi, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması üçün Dövlət Komitəsinin fəaliyyəti ildən-ilə gücləndirilmişdir.

Bu sahədə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan strateji xətt Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Bu gün Azərbaycanda müxtəlif dini konfessiyaların fəaliyyəti üçün yüksək səviyyədə şəraitin yaradılması, dini məbədlərin – məscidlərin, kilsələrin, sinaqoqların dövlət vəsaiti hesabına tikilərək dindarların istifadəsinə verilməsi, dini maarifçilik işinin gücləndirilməsi məqsədi ilə dini icmalara maliyyə vəsaitlərinin ayrılması, Azərbaycanın tolerantlıq modelinin dünyaya təbliği məhz cənab Prezidentin bəhs edilən sahəyə münasibətinin göstəricisidir. Bu mənada, Dövlət Komitəsi də diqqətdən kənarda qalmamış, son illərdə Dövlət Komitəsinin səlahiyyətləri artırılmış, bir çox istiqamətlərdə yeni səlahiyyətlər verilmişdir.

Artıq 16 ildir ki, fəaliyyət göstərən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi diqqət və qayğıdan bəhrələnərək işini günün tələbləri səviyyəsində qurmaqla, ölkəmizdə dini konfessiyalar arası münasibətləri ən yüksək səviyyədə tənzimləməkdədir. Dövlət Komitəsi nəinki bu sahədəki münasibətləri tənzimləyir, həmçinin, dini icmaların fəaliyyətinin yüksək səviyyədə təşkilinə çalışır.

Bu gün Dövlət Komitəsi təkcə ölkəmizdə deyil, ölkəmizdən kənarda da tolerantlıq və humanizm ənənələrinin təbliği üçün müxtəlif konfrans və simpoziumlar təşkil edir. Son dövrlər Dövlət Komitəsinin sözügedən sahədəki fəaliyyəti daha da güclənmiş, milli-mənəvi dəyərlərin təbliği, qeyri-ənənəvi dini cərəyanlara və radikal qruplara qarşı ideoloji səddin yaradılması prioritetə çevrilmişdir.

Nəticə olaraq deyə bilərik ki, hazırda bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində də ölkəmizdə formalaşdırılmış model özünəməxsusluğu ilə seçilir və bu mexanizm ən mükəmməl formada fəaliyyət göstərməkdədir. Ölkəmizdə bütün dini konfessiyaların nümayəndələri birlik, bərabərlik, qardaşlıq şəraitində yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə ifadə etsək: "Bugünkü Azərbaycanı dini dözümlülük, tolerantlıq mühiti səciyyələndirir".

# Amerikalı jurnalist: «Azərbaycana gələn hər kəs insanlar arasında harmoniyanın mümkünlüyünə əmin olur»




***Amerikalı jurnalist, "NewsBlaze", "The Jeurusalem Post", "The Times of Israel" kimi nüfuzlu mətbuat orqanlarının yazarı Nurit Qrinqer Azərbaycana səfər edib və ölkəmiz haqqında növbəti məqalə yazıb.***

Məqaləsinə "Azərbaycana gələn hər kəs çox qısa zamanda insanlar arasında harmoniya və birliyin mümkünlüyünə əmin olur" sözləri ilə başlayan Nurit Qrinqer Azərbaycan xalqının öz genlərində fəxarətlə harmonik mövcudluğu yaşatdığını qeyd edir. Müəllif "Nəyə görə bu, Azərbaycanda mümkündür və digər yerlərdə mümkün deyil" kimi sualla çıxış edərək məqalə boyunca buna cavab tapmağa çalışır.

Gününü Şəhidlər xiyabanını ziyarətlə başlayan müəllif qanlı Yanvar faciəsində və Qarabağ uğrunda müharibədə həlak olanların məzarlarını ziyarət etdiyini bildirir. Yanvar faciəsi və Qarabağ müharibəsinin sülhpərvər Azərbaycan xalqının tarixində ən kədərli məqamlardan biri olduğunu yazır.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevdən müsahibə alan Nurit Qrinqer Azərbaycanın xarici siyasətinin çoxşaxəli olduğunu qeyd edir. Müəllif yazır: "Hikmət Hacıyev fəxarətlə və böyük həvəslə Azərbaycan rəhbərliyinin ölkə vətəndaşları üçün təmin etdiyi parlaq gələcəkdən danışdı".

Jurnalist XİN-in sözçüsünə istinadən Azərbaycanın tarixən böyük güclərin döyüş meydanı olduğunu və Azərbaycan xalqının buna görə çox əziyyətlər çəkdiyini bildirir. O, bu gün Azərbaycanın yəni əməkdaşlıq və tərəfdaşlıq xarakterli siyasət yürütdüyünü yazır.

H.Hacıyev Azərbaycanın xarici siyasətinin daxili siyasətinin əksi olduğunu qeyd edərək müəllifə Azərbaycanın İsrail, İran, Rusiya ilə qarşılıqlı faydalı əməkdaşlığı, ölkəmizin nəqliyyat strategiyası, turizmin, təhsilin və kənd təsərrüfatının inkişafı, "qara qızıl"ın insan kapitalına çevrilməsi siyasəti haqqında məlumat verir.

Müəllif Bakıdakı Katolik Kilsəsinə, sinaqoqa, Təzəpir məscidinə ziyarətindən və Qafqaz Müsəlmanları İdarəsində görüşlərindən də bəhs edir. O, Azərbaycanda yəhudilərin firavan və təhlükəsiz yaşadığını vurğulayır.

Müəllif oxuculara Azərbaycana səyahət etməyi məsləhət görərək məqaləsini bu sözlərlə bitirir: "Azərbaycana səfər etsəniz sizin bütün şüuraltı qərəzli fikirləriniz bu ölkənin alicənab, mədəni və sivil insanlarının mühitində tamamilə əriyib gedəcək".

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi 2016-cı ilin yekunlarına həsr olunan "Hesabat" çap edib

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2016-cı ilin yekunlarına həsr edilən "Hesabat"ını çap edib. Nəşr Komitənin 2016-cı il ərzində fəaliyyət sahələri üzrə həyata keçirdiyi tədbirləri, tətbiq etdiyi yenilikləri əhatə edir.

Nəşrin "Dini qurumlarla iş", "Dini radikalizmlə mübarizə", "Dini maarifləndirmə işi", "Multikulturalizm ili" və s. bölmələrində ötən il Dövlət Komitəsinin milli-mənəvi dəyərlərin təbliği, radikalizmlə mübarizə, respublikada dini durumun öyrənilməsi, dini qurumlarla əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın zəngin tolerantlıq ənənələrinin ölkə daxilində və beynəlxalq aləmdə təbliğ edilməsi istiqamətində gördüyü işlər barədə məlumatlar və fotoşəkillər əksini tapıb.

"Hesabat"da qeyd edilib ki, 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli" elan edilməsinə dair Tədbirlər Planına uyğun olaraq, Dövlət Komitəsi tərəfindən res-




publikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq-mühafizə orqanlarının rəhbərləri, gənclər, dini icma sədrləri, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəallarının iştirakı ilə 160-dan artıq tədbir keçirilib.

Nəşrdə ötən il ərzində Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş, dini radikalizmə və ekstremizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edən "Fitnə" sənədli filmi, eyni zamanda Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini ifşa edən "Vandalizm" sənədli filmi barədə məlumatlar qeyd olunub.

İllik "Hesabat"da Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural ənənələrin ölkə xaricində təbliği istiqamətində İran, İspaniya, İsveç və digər ölkələrdə keçirilən yüksək səviyyəli görüşlər və sərgilər barədə məlumatlar da yer alıb.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan nəşrin Dövlət Komitəsinin fəaliyyətinin ictimaiyyətə geniş şəkildə çatdırılması baxımından əhəmiyyətli olacağına ümidvarıq.

# TERRORA QARŞI İSLAM HƏMRƏYLİYİ

Müasir dünyada beynəlxalq proseslərin gedişatına nəzər saldıqda ən aktual məsələlərdən birinin, bəlkə də birincisinin terror olduğu görünür. Terrorizm, heç şübhəsiz, hazırda insanlıq və bəşəriyyətə tuşlanmış ən təhlükəli silahdır.

Lakin günümüzdə daha narahatedici məqam siyasi oyunlara əl atan qüvvələrin terror kimi bəşəri cinayəti İslamla əlaqələndirməyə çalışmasıdır. Ekstremizm, terrorizm və bu kimi anlayışları İslamla əlaqələndirən qüvvələrin məqsədi İslam dininin sürətlə yayılmasının və təməli Rəsulullahın(s) dövründən qoyulan müsəlman qardaşlığının daxildən dağıdılmasına yönəlmişdir. Çox təəssüflə qeyd etmək lazımdır ki, bu gün hegemon dövlətlərin siyasi oyunlarına alət olan müsəlman ölkələri münaqişələrlə dolu acınacaqlı vəziyyətə düşmüşlər. Parisin Sorbon Universitetinin Siyasi Araşdırmalar Mərkəzinin direktoru rəssam Sələmə ABŞ-da nəşr olunan "Foreing Policy" jurnalında dərc olunmuş "İslam və Qərb" məqaləsində: "Soyuq müharibə bitdi. Qərb strateqləri yeni bir düşmən müəyyənləşdirdi. Bu düşmən İslamdır...Halbuki, bu insanların əksəriyyətinin İslam haqqında bilgiləri çox qıtdır",- deyə yazır. Bu siyasət müsəlmanların parçalanması ilə yanaşı, İslama və müsəlmanlara qarşı böyük nifrət yaratmışdır.

İslamın adının terrorla qoşa çəkilməsi beyinlərdə belə bir sual doğurur: "Doğrudanmı İslam dünya üçün potensial təhlükədir? Bu dinin fundamentalizm, terrorizm, ekstremizm və s. kimi məfhumlarla əlaqəsi vardırmı?".Bu suallara aydınlıq gətirmək üçün öncə "terror" sözünün kökünə nəzər salaq və bu iki anlayışı - terror və İslam - müqayisə edək. Hərfi anlamda "terror" sözü "qorxu","İslam" isə "sülh" deməkdir. İlk sual burdan meydana gəlir: zidd anlayışlar necə ola bilər ki, eyniləşsin? Yuxarıda da qeyd olunduğu kimi, "terrorizm" insanlığa və dünyaya qarşı yönəldilmiş cinayətdir. Bu, bəzi qüvvələrin öz şəxsi məqsədlərinə çatması üçün zor, güc, hədə-qorxu tətbiq etməsidir. Terror bəşəriyyətin məhvinə yönəlmiş dağıdıcı siyasət növüdür.

İslam isə gözəl əxlaq, xoş ünsiyyət, Allahın yaratdığı hər bir canlıya qarşı qayğı, sevgi, mərhəmət göstərilməsini əmr edir. İslamda hətta bitkilərin də, heyvanların da ehtiyacdan artıq kəsilməməsi buyurulur. İslamla azca tanışlığı olan hər kəsə məlumdur ki, bu dində, ümumiyyətlə, zorakılığa yer yoxdur. Məhəmməd peyğəmbərin (s) müharibə qanunlarına nəzər salsaq, müharibədə ələ keçirilmiş ərazilərdə qadınları, uşaqları, yaşlıları, xəstələri, din adamlarını, təslim olanları, heyvanları öldürməyi, ağacları kəsməyi, əsirlərlə pis rəftar etməyi, ibadət yerlərini dağıtmağı, meyitlərə ziyan vurmağı qadağan etdiyini görərik (Buxari, Cihad,146; Əbu Davud, 113).

Bir çoxu İslamda "cihad"ı terrorla eyniləşdirərək ona "terror dini" damğası vurmağa çalışır. Lakin İslamda cihad anlayışı tamamilə fərqlidir və o heç bir halda günahsız insanın öldürülməsinə yönəlməmişdir. Cihad, Allahın buyurduğu kimi, özünü müdafiə formasıdır. Bu müdafiə də hazırda hər bir ölkənin konstitusiyasında yer almaqdadır. Uca Yaradan buyurmuşdur: "Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir" (Bəqərə, 190). Peyğəmbərin (s) və onun yolu ilə gedən müsəlmanların da üzərinə düşən öhdəlik ancaq təbliğdir. Qurani-Kərimdə də buyurulduğu kimi, heç kəsi zorla, hədələməklə, qanını tökməklə İslama gətirmək olmaz: "Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi" (Bəqərə,256). Belə uca anlayışları özündə ehtiva edən bir din milyonlarla günahsız insanların qanının axıdılmasına necə bais ola bilər?

Terrorçuların əsas məqsədləri zor tətbiq etmə, kütləvi qətliamlar, ölkələr arasında müharibələr yaratmaqdır.



Əsl müsəlman isə nəinki öz din qardaşına, ümumiyyətlə, heç bir canlıya qarşı zülm etməz. Belə olan halda həqiqi müsəlmana terrorçu damğası necə vurula bilər?

Məlumdur ki, bir dini tanımağın ən doğru yolu onun müqəddəs qaynağını araşdırmaqdır. İslamın müqəddəs mənbəyi Qurandır və onun əxlaqının əsas prinsipi sevgi, şəfqət, mərhəmət, ədalət, təvazökarlıq, fədakarlıq kimi humanist keyfiyyətlərdir. Bu əxlaqi keyfiyyətləri öz ruhunda birləşdirən müsəlman hərtərəfli şəkildə kamil insana çevrilərək ətrafdakılara da sevgi, hörmət və rahatlıq bəxş edir. Quran əxlaqına görə, müsəlman olan şəxs dinindən asılı olmayaraq, digər insanlarla mehriban və ədalətli davranmağa, zəifləri və günahsızları qorumağa, yer üzündə fitnə-fəsadın qarşısını almağa borcludur, bunun üçün məsuliyyət daşıyır. Yer üzündə insanların əmin-amanlığını və rahatlığını, sülhü pozan hər cür anarxiya və terror isə fitnə-fəsaddır.

Dünyada baş verən terror hadisələrinin İslamla əlaqələndirilməsi bu dinin adına silinməsi çətin olan ləkə vurur. Bu ləkənin təmizlənməsinin yeganə yolu isə müsəlman ölkələrinin həmrəyliyi və birgə əməkdaşlığıdır. Məhz bu prizmadan çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci ili "İslam Həmrəyliyi İli" elan edərək İslam dininə vurulan terror damğası ilə birgə mübarizədə ölkəmiz adına böyük addım atmışdır. Qeyd edək ki, bu addım İslam ölkələri tərəfindən çox böyük dəstək almışdır. Bütünlüklə İslam dünyasının birliyinə doğru atılan bu addım müsəlman ölkələrini yaxınlaşdırmaqla yanaşı, onları İslam adı ilə bağlanan terrora qarşı mübarizədə də birləşdirəcəkdir.

Əsrlərdən bəri Azərbaycan xalqı bir çox etnik və dini birlikləri öz qoynunda birləşdirmiş və İslam dininin mahiyyətindən doğan sülh, həmrəylik kimi prinsiplərə sadiqlik nümayiş etdirərək bu torpaqlarda yaşayan hər kəsə bərabər dərəcədə yanaşmışdır. Bu rəngarənglik və müxtəliflik ayrı-ayrı xalqlar və etnik qruplar arasında heç zaman narazılıq və ya ayrı-seçkiliklərə səbəb olmamış, əksinə,Ulu Öndər Heydər Əliyevin yürütdüyü siyasət nəticəsində daha da möhkəmlənərək xalqımızın güclənməsinə səbəb olmuşdur. Hazırda ölkəmiz beynəlxalq miqyasda multukulturalizm, həmrəylik prizmasından nümunəvi ölkə kimi qəbul olunur.

Çoxkonfessiyalı ölkə kimi Azərbaycan dünyada dinlər və mədəniyyətlər arasında əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsinə layiqli töhfələr verə bilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həmrəyliklə bağlı fikirlərində bildirdiyi kimi, bu həmrəylik təkcə İslam dininə mənsub olanların yox, eləcə də digər dinlərlə İslam dini arasında həmrəyliyin yaradılmasına xidmət etməlidir: "Müasir dünyamızda İslam həmrəyliyinin vacibliyi ilk olaraq İslam daxilindəki həmahəngliyin bərqərar edilməsində özünü göstərir. Bu, müxtəlif məzhəblər arasında dini anlaşılmazlıqların elmi müstəvidə aradan qaldırılması, bütün İslam ölkələri arasında qarşılıqlı hörmət və etibara əsaslanan münasibətlərin qurulmasıdır. Bununla yanaşı, İslam həmrəyliyi dedikdə, həmçinin İslam ilə digər dinlər arasında harmoniyanın yaranması da nəzərdə tutulur. Buna nail olmaq, əslində, dünya dinləri arasında ahəngdar və bir-birinə inamlı münasibətin daha da möhkəmlənməsinə, İslam ölkələri ilə digər ölkələr arasında bəşəri dəyərlərə əsaslanan xoş münasibətlərin inkişafına nail olmaq deməkdir. Bunun üçün çox işlər görmək, real addımlar atmaq lazımdır".

Terrorun və terrorçunun nə dini, nə də milliyəti vardır. Bir çox siyasi ideologiyalar və siyasi doktrinalar altında gizlədildiyi kimi, terrorizm İslam dini ilə də maskalanır. Hazırda dünya ölkələrinin diqqət mərkəzində olan terror özünü dinlə pərdələmişdir. Ancaq bu, insanları onun həqiqi üzünü görməkdə çaşdırmamalıdır. Terrorçu qüvvələr özlərinin təcavüzkar siyasətlərini həyata keçirtmək üçün hər birimizin hörmətlə yanaşdığı milli-mənəvi dəyərləri hədəf seçirlər. Bütün dünyanı ağuşuna almış terror ilə mübarizə müsəlman ölkələrini bir-birinə daha da yaxınlaşdırmışdır. Bu yaxınlaşma fonunda xalqlararası, dinlərarası və mədəniyyətlərarası dialoq daha böyük əhəmiyyət daşımağa başlamışdır. Həmrəyliyin bərqərar edilməsinə istiqamətlənən bu dialoq terrorizmin qarşısının alınmasına xidmət etməlidir.

Terrorizm bir insanın həyatı üçün təhlükə yaradırsa, deməli, bütövlüklə cəmiyyət və bəşəriyyət üçün təhlükəlidir. Bəşəriyyətin xilası naminə, mədəniyyətlərin və dinlərin dialoqunda qarşılıqlı həmrəylik yaratmalı, terrorizmə, ekstermizmə, zorakılığa "yox" deməli, təxribatçı, dağıdıcı qüvvələrə qarşı birlik və həmrəylik nümayiş etdirməliyik.

**_Rima Hacıyeva,_**
*DQİDK-nın əməkdaşı*

## "Azərbaycanda Xristianlıq: keçmişdən bu günə" adlı kitab nəşr olunub




Xristianların Azərbaycandakı zəngin tarixi irsini və ənənələrini işıq üzünə çıxarmaq, eləcə də ölkəmizdə tarixən mövcud olan multikultural və tolerant ənənələri təbliğ etmək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən "Azərbaycanda Xristianlıq: keçmişdən bu günə" adlı kitab nəşr olunub. Dini icmalara maliyyə yardımının göstərilməsi ilə bağlı Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama əsasən, çap edilmiş kitabın müəllifi Dövlət Komitəsinin Dini təhsil sektorunun müdiri Anar Əlizadədir.

Tədqiqat əsərinin "Qədim Şərq Kilsəsi", "Pravoslavlıq", "Katoliklik", "Ruhani Xristianlıq", "Protestantlıq" kimi fəsillərində qrafik, cədvəl və sxemlər əsasında ölkəmizdə mövcud olan bütün xristian konfessiyalar, cərəyanlar və dini icmaların tarixi keçmişləri, inanc əsasları, idarəetmə strukturu, etnik, say və yaş tərkibi haqqında təfsilatlı məlumat verilib.

Zəngin fotomaterialların yer aldığı nəşrin ərsəyə gətirilməsində Azərbaycan Dövlət Tarix Arxivinin, Azərbaycan SSR Nazirlər Soveti yanında Dini İşlər üzrə Şuranın müvəkkilinin və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dini İşlər İdarəsinin arxiv materiallarından istifadə olunub, eyni zamanda Gədəbəy rayonunun Slavyanka kəndində yaşayan duxoborlardan müsahibə götürülüb.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş nəşrin respublikamızda yaşayan xristianların dini həyatlarının işıqlandırılması və yeni tədqiqatların aparılması baxımından əhəmiyyətli olacağına ümidvarıq.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## *Dəyişiklik*

**İsmayıllı rayonu Talıstan kəndi "Bilal" məscidi dini icması**
**Qeydiyyat tarixi: 11 fevral 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 215**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əbilov Məmədşah Valeh oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Hüseyinov Aqil Həsən oğlu, Hüseynov Fərid Vəli oğlu, Bədəlov Nəsimi Rasim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 26 may 2017-ci il**

---

**İsmayıllı rayonu Quşencə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 30 mart 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 266**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərəmov Müzəffər Qara oğlu, Şiraliyev Canalı Canlar oğlu, Baxışov Ziyad Tavaro oğlu, Şixəliyev Şakir Şixəli oğlu, Cəbiyev Biroğlan Ağamir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Baxışov Elman Ziyad oğlu, Baxışov Yalçın Ziyad oğlu, İbrahimov Şöhrət İdayət oğlu, İbrahimov Tural İdris oğlu, Tapdıqov Müşviq Lazır oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 26 may 2017-ci il**

---

**Qobustan rayonu Təklə Mirzəbaba kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 10 mart 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 251**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nəcəfov Səməd Heybət oğlu, Şıxaliyev Xostu Məmmədqulu oğlu, Baxışov Sabir Həbib oğlu, Soltanov Şahalı Şahbala oğlu, Mehdiyev Salman Fərzi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Şəkərov Rahib Əvəz oğlu, Nəbiyev Zahid Mürvət oğlu, Qayıbova Rəsmiyyə Güləsən qızı, Nəbiyev Ziyad Mürvət oğlu, Qayıbov Mahir Salman oğlu, Əzizov Şakir Nürəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 02 iyun 2017-ci il**

---

**Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 06 noyabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 10**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəhimov Atif Arif oğlu, Əbdülrzaqov Azər Hacı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Muxtarov Ayaz Nadir oğlu, Nurməmmədov Əflatun Sabir oğlu, Məmmədov Absalam Mömin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Şahverənzadə Sərvər Sabir oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Məmmədov Əliyulla Rasim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 02 iyun 2017-ci il**

---

**Şəki rayonu İncə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 mart 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 247**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məcidov Abdulməcid Abdurəhim oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əhmədov Dilqəm Ağabala oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Məcidov Abdulməcid Abdurəhim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Məcidov Həsən Abdulməcid oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 02 iyun 2017-ci il**

---

**Lənkəran rayonu Qurumba kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 27 yanvar 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 186**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Təhməz Qüdrət oğlu, Talıbov Qurbanəli Nürəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Babayev Cavid Hacıhəsən oğlu, Hüseynov İlham Təhməz oğlu, Tağıyev Ələskər Ələkbər oğlu, Məmmədov İslam Xalıq oğlu, Baxşıyev Ramiz İnqilab oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 07 iyun 2017-ci il**

---

**Zərdab rayonu Qaravəlli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 12 noyabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 16**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İbişov Hümbət İbrahim oğlu, Səlimov Həbib Hüseyn oğlu, İbrahimov Qasım Qədim oğlu, Həsənov Əlmürsəl Əlhəsən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Hüseynov Hüseyn Fəti oğlu, Həsənov Aqil Əlmürsəl oğlu, Mahmudov Ruhulla Ağahüseyn oğlu, Məmmədov Tehran Məhəmməd oğlu, Məmmədov Fərhad Bəylər oğlu, Məmmədov Bəhman Məhərrəm oğlu, Abbaszadə Şəmsi Məlik oğlu, Rəsulov Ələmdar Cabbar oğlu, Hüseynov Eldar Mirzə oğlu, Hüseynov Rəşad Hüseyn oğlu, Hüseynov Əlizamin Abbasqulu oğlu, Səlimov Nuru Həbib oğlu, Həsənov İsgəndər Hüseyn oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Həsənov Ələkbər Əlmərdan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Hüseynov Hüseyn Fəti oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 12 iyun 2017-ci il**

---

**Ucar rayonu Quləbənd kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 sentyabr 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4 – 489**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Abdul Zakir oğlu, Xəlilov Əvəz Tapdıq oğlu, Həşimov Faiq Səmid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Cəbrayılov Fərman Qulu oğlu, Hüseynov Qabil Əli oğlu, Beydullayev Arif Firuddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Əliyev Abdul Zakir oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əhmədov İlqar Bayram oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 23 iyun 2017-ci il**

## *Ləğv olunan dini icmalar*

**Zaqatala rayonu Car kənd dini icması**
**Qeydiyyat tarixi: 24.06.2002-ci il**
**Qeydiyyat №-si: 128**

Zaqatala rayonu Car kənd dini icması təsisçilərinin 06.03.2017-ci il tarixli, 02 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması: 06 iyun 2017-ci ildə qeydə alınıb.**

---

**Lənkəran rayon Şilavar kəndi "İmam Rza" məscidi dini icması**
**Qeydiyyat tarixi: 29.04.2008-ci il**
**Qeydiyyat №-si: 1308Lə1-470**

Lənkəran rayon Şilavar kəndi "İmam Rza" məscidi dini icması təsisçilərinin 22.05.2017-ci il tarixli, 02 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması: 12 iyun 2017-ci ildə qeydə alınıb.**

---

**Naftalan şəhər məscidi dini icması**
**Qeydiyyat tarixi: 15.05.2008-ci il**
**Qeydiyyat №-si: 1308N1-476**

Naftalan şəhər məscidi dini icması təsisçilərinin 15.05.2017-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması: 29 iyun 2017-ci ildə qeydə alınıb.**

---

**Goranboy rayonu Dəliməmmədli şəhəri "Həzrəti Əli" məscidi dini icması**
**Qeydiyyat tarixi: 04.07.2007-ci il**
**Qeydiyyat №-si: 1307Go1-399**

Goranboy rayonu Dəliməmmədli şəhəri "Həzrəti Əli" məscidi dini icması təsisçilərinin 18.05.2017-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması: 29 iyun 2017-ci ildə qeydə alınıb.**

## *Elan*

*Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbə dini icması (20.08.2003-cü il tarixli 208 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 22 may 2017-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.*

CƏMİYYƏT və DİN

№ 6 (311) / İYUN 2017-ci il

# Eynşteynin məktubları hərracda 210 min dollara satıldı



Görkəmli alim Albert Eynşteynin fizika və Allah haqqında fikirlərinin əks olunduğu məktubları hərracda 210 min dollara satılıb.

Satış məbləği hərrac təşkilatçılarının gözlədiklərindən qat-qat üstün olub.

Böyük alimin imzası olan, onun öz əli ilə düzəliş və əlavələr etdiyi makinada çap edilmiş altı orijinal məktub 1950-ci illərin əvvəllərində yazılıb. Həmin məktubları Eynşteyn həmkarları Devid Bom və Maks Borna ünvanlayıb.

Yerusəlimin "Winners" hərrac evi məktublardan 33-49 min dollar arasında gəlir götürməyi hesablamışdı. Lakin Eynşteynin yalnız Boma yazdığı məktub üçün adı çəkilməyən alıcı 84 min dollar ödəyib.

# Türkiyə göstərdiyi humanitar yardıma görə dünyada ikinci yerdədir



Türkiyə humanitar yardımlarına görə 2016-cı ilin göstəricilərinə əsasən dünyada ikinci yerdədir.

Türkiyə Respublikasının Fəlakət və Fövqəladə Halların İdarəedilməsi Komitəsinin (AFAD) məlumatına görə, qardaş ölkə ötən il humanitar yardım məqsədilə 6 milyard ABŞ dolları məbləğində vəsait sərf edib. 2015-ci ildə ümumi daxili məhsulun 0,75 faizi humanitar yardımlara yönəldilib. Beləliklə, dünyadakı bütün humanitar yardımın beşdə biri Türkiyənin payına düşür.

Bu göstərici üzrə birinci yeri 6,3 milyard dollarla Amerika Birləşmiş Ştatları tutur.

# ƏN GƏLİRLİ YÜZ İNFORMASİYA TEXNOLOGİYALARI ŞİRKƏTİ ARASINDA "APPLE" BİRİNCİ YERDƏDİR



"Gartner" analitik şirkəti dünyanın ən çox gəlirə malik yüz informasiya texnologiyaları (IT) şirkətinin siyahısını tərtib edib.

"Computerworld " resursuna istinadən, siyahıya IT məhsulları və elektron komponentlər istehsal edən, eləcə də sahə üzrə xidmətlər göstərən (rabitə xidmətləri istisna olmaqla) yüz şirkət daxil edilib. Birinci yeri bir il əvvəl olduğu kimi, şirkətin qiymətləndirməsinə görə, 2016-cı ildə illik gəliri 218,1 milyard dollar təşkil edən "Apple" şirkəti tutub. Bu, ikinci yerdə qərarlaşan "Samsung Vendor Group" şirkətinin gəlirindən 79 milyard dollar çoxdur. Sonrakı mövqelərdə "Google" (90,1 milyard dollar, internet şirkəti il ərzində reytinqdə beşinci yerindən üçüncü pilləyə yüksəlib), Microsoft (85,7 milyard dollar) və "IBM" (77,8 milyard dollar) yer alıb.

Bildirilir ki, "Apple", "Samsung" və "Google" şirkətlərinin uğuru əsasən onların fəaliyyət istiqamətlərinin "Nexus of Forces" (güc mərkəzi) təsiri - bir-birini gücləndirən sosial, mobil və "bulud" texnologiyalarının birləşməsi ilə üst-üstə düşməsi ilə izah edilir.

## Yadigar söz

*Mahatma Qandi,*
*Hindistanlı ictimai və siyasi xadim*

**Təcavüz etməmək inancımın birinci maddəsidir. Eyni zamanda o, etiqadımın da son maddəsidir.**

# Bakı və Abşeron üzrə namaz vaxtları (İyul - 2017)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:27 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:53 |
| 2 | 03:28 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:52 |
| 3 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 4 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 5 | 03:30 | 05:16 | 12:45 | 17:57 | 20:31 | 21:51 |
| 6 | 03:31 | 05:16 | 12:45 | 17:57 | 20:30 | 21:51 |
| 7 | 03:32 | 05:17 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 8 | 03:33 | 05:18 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 9 | 03:34 | 05:18 | 12:46 | 17:57 | 20:29 | 21:49 |
| 10 | 03:35 | 05:19 | 12:46 | 17:57 | 20:29 | 21:48 |
| 11 | 03:36 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:48 |
| 12 | 03:37 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:47 |
| 13 | 03:38 | 05:21 | 12:46 | 17:56 | 20:27 | 21:46 |
| 14 | 03:39 | 05:22 | 12:46 | 17:56 | 20:27 | 21:45 |
| 15 | 03:40 | 05:23 | 12:46 | 17:56 | 20:26 | 21:44 |
| 16 | 03:41 | 05:23 | 12:47 | 17:56 | 20:26 | 21:43 |
| 17 | 03:42 | 05:24 | 12:47 | 17:55 | 20:25 | 21:42 |
| 18 | 03:44 | 05:25 | 12:47 | 17:55 | 20:24 | 21:41 |
| 19 | 03:45 | 05:26 | 12:47 | 17:55 | 20:23 | 21:40 |
| 20 | 03:46 | 05:27 | 12:47 | 17:54 | 20:23 | 21:39 |
| 21 | 03:47 | 05:27 | 12:47 | 17:54 | 20:22 | 21:38 |
| 22 | 03:48 | 05:28 | 12:47 | 17:54 | 20:21 | 21:37 |
| 23 | 03:50 | 05:29 | 12:47 | 17:53 | 20:20 | 21:36 |
| 24 | 03:51 | 05:30 | 12:47 | 17:53 | 20:19 | 21:35 |
| 25 | 03:52 | 05:31 | 12:47 | 17:52 | 20:19 | 21:33 |
| 26 | 03:54 | 05:32 | 12:47 | 17:52 | 20:18 | 21:32 |
| 27 | 03:55 | 05:33 | 12:47 | 17:51 | 20:17 | 21:31 |
| 28 | 03:56 | 05:34 | 12:47 | 17:51 | 20:16 | 21:30 |
| 29 | 03:58 | 05:35 | 12:47 | 17:50 | 20:15 | 21:28 |
| 30 | 03:59 | 05:35 | 12:47 | 17:50 | 20:14 | 21:27 |
| 31 | 04:00 | 05:36 | 12:47 | 17:49 | 20:12 | 21:25 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# SALVADOR DALİNİN MƏZARI AÇILACAQ



Madrid məhkəməsi Maria Pilar Abel Martinezin iddiasına əsasən atalığın müəyyənləşdirilməsi ilə əlaqədar məşhur rəssam Salvador Dalinin meyitinin qalıqlarının eksqumasiyası barədə qərar verib.

Anadolu Agentliyinin verdiyi xəbərə görə, Maria Pilar Abel Martinez Salvador Dalinin qızı olduğunu iddia edir.

Məhkəmə iddiaya əsasən atalıqla bağlı bioloji testin keçirilməsinə qərar verib.

Qeyd edək ki, 1904-1989-cu illərdə yaşayan S.Dali sürrealizm cərəyanının məşhur nümayəndələrindən biridir. O, yüzlərlə rəsm əsəri, kitablar üçün illüstrasiyaların, heykəllərin müəllifidir.

# "FACEBOOK" İSTİFADƏÇİLƏRİNİN SAYI 2 MİLYARDI ÖTÜB

"Facebook" sosial şəbəkəsinin istifadəçilərinin sayı 2 milyard nəfəri ötüb.

Bununla da "Facebook" ən çox istifadəçisi olan sosial şəbəkəyə çevrilib. Dünya əhalisinin sayı ilə müqayisəli şəkildə götürsək, rəqəmin astronomik olduğunu görərik. Dünya əhalisinin (təxminən 7,4 milyard) demək olar ki, hər dörd nəfərindən biri Harvard Universitetinin tələbəsi Mark Zükerberq tərəfindən 2004-cü ildə yaradılan bu sosial şəbəkənin üzvüdür.

Hazırda "Facebook"un dünyanın 50-yə yaxın şəhərində 18 min nəfərdən çox işçisi var. "Forbes" nəşrinin son hesabatına görə, "Facebook"un 33 yaşlı rəhbəri Mark Zükerberq cəmi 13 il ərzində dünyanın ən varlı 5 insanından birinə çevrilib.

# 30 İL SONRA İNSANLAR HƏFTƏDƏ DÖRD GÜN İŞLƏYƏCƏKLƏR

Çinin ən böyük internet şirkəti – "Alibaba Group"un rəhbəri Cek Ma bildirib ki, 30 il sonra insanlar həftədə dörd gün və gündə dörd saat işləyəcəklər. Süni intellektin inkişafı insanlara daha çox səyahət etməyə və daha az işləməyə imkan verəcək.

"ria.ru" saytı xəbər verir ki, əsl peşəsi müəllim olan Cek Manın sözlərinə görə, dünya liderləri avtomatlaşdırılmanın tətbiqinin fəsadsız olması üçün diqqəti təhsil sisteminə yönəltməlidirlər. Şirkətin rəhbəri deyib: "Biz əmin olmalıyıq ki, yeni texnologiyalar insanların bacarmadıqlarını edə bilərlər. Lakin bu texnologiyalar heç vaxt insanlarda olan müdriklik və təcrübəni əldə edə bilməyəcək".

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 345

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894